**TƏSSİSÇİ**
Azərbaycan Respublikasının
Ailə, Qadın və Uşaq Problemləri
üzrə Dövlət Komitəsi

**REDAKSİYANIN ÜNVANI**
AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli
küçəsi 80, Hökumət Evi, IV alaqapı
Tel: (+994 12) 498 80 93
www.scfwca.gov.az
E-mail: office@scfwca.gov.az

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır Əlyazmalar geri qaytarılmır

**BAŞ REDAKTOR**
Azərbaycan Respublikasının
Ailə, Qadın və Uşaq Problemləri üzrə
Dövlət Komitəsi

**NƏŞRİYYAT ÜNVANI**
"Günəş-B" nəşriyyatı
Bakı şəhəri, S.Rüstəm, 59
Tel. (+99912) 493-41-11
E-mail: araz.ra@rambler.ru

# MÜNDƏRİCAT

*Redaktordan----------------------------------------------------2*

*Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi Ercan Murat----- 4*

*Birləşmiş Millətlər Təşkilatının Əhali Fondunun Türkiyə üzrə Nümayəndəsi və Azərbaycan üzrə Ölkə Direktoru Karl Kulessa----------------------------------------------------5*

*UNICEF-in Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Andro Şilakadze ----------------------------------------------6*

*BMT Əhali Fondunun Şərqi Avropa və Mərkəzi Asiya üzrə Regional Ofisinin direktoru cənab Heimo Laakkonen --------------------------------------------7*

*Beynəlxalq Alman Əməkdaşlıq Təşkilatının Cənubi Qafqazda Yerli Özünüidarəetmə Proqramının rəhbəri Axel Müller------------------------------------------------------------8*

*Avropa İttifaqının Azərbaycandakı Səfiri Malena Mard*

*Türkiyə Cümhuriyyəti Ailə və Sosial Siyasətlər naziri Dr. Sema Ramazanoğlu --------------------------------------9*

*Belarus Respublikasının Əmək və Sosial Müdafiə Naziri Marianna Şyotkina ------------------------------------------10*

*İran İslam Respublikası Prezidentinin Ailə və qadın məsələləri üzrə müavini Şəhindoxt Mövlaverdi ------------11*

*Küveyt Dövləti Qadın Məsələləri üzrə Komitə--------------11*

*Fransa Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Orelia Buşez ----------------12*

*Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu --------------------------------------13*

*Azərbaycanda Ailə, Qadın və Uşaq siyasəti gücləndirilir Hicran Hüseynova ---------------------------------------------14*

*Şərəfli missiya-Azad Rəhimov--------------------------------22*

*Ailə xalqın mədəni inkişafının meyarıdır – Əbülfəs Qarayev ------------------------------------------------------------------25*

*Ailə institutunun daha da möhkəmləndirilməsi üçün cəmiyyətdə din-ailə münasibətlərinin geniş şəkildə müzakirə edilməsi zəruridir- Mübariz Qurbanlı------------29*

*Ağsaqqallar Şurası---------------------------------------------31*

*YAP Qadınlar Şurası--------------------------------------------32*

*Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi---------33*

*Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)--------------------------------------35*

*Azərbaycan Respublikasının Təhsil Nazirliyi----------------36*

*Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi-37*

*Azərbaycan Respublikasının Vergilər Nazirliyi-------------38*

*Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi-39*

*Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi-------------------------------------------------------40*

*Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi---------41*

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi---------------43*

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi--------------------44*

*Dövlət Təhlükəsizlik Xidməti----------------------------------45*

*Tələbə Qəbulu üzrə Dövlət Komissiyası----------------------46*

*Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası------47*

*Bakı Dövlət Universiteti----------------------------------------48*

*Azərbaycan Dövlət İqtisad Universiteti----------------------49*

*Azərbaycan Texniki Universiteti-------------------------------50*

*Komitənin 10 illiyinə həsr olunmuş tədbir------------------52*



### *Hörmətli “Ailə Qadın Uşaq” jurnalının oxucuları!*

Jurnalımızın növbəti buraxılışı yaz bayramları – 8 Mart Beynəlxalq Qadınlar bayramı və Novruz bayramları ərəfəsində çap olunur. Bu dəfəki nəşrimiz Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 10 illik yubileyinə həsr olunub.

Qloballaşan dünyada qadın və uşaq hüquqları hər zaman cəmiyyətin diqqət mərkəzində saxladığı məsələlərdəndir. Müxtəlif illərdə keçirilən Qadınların Ümumdünya konfranslarının nəticəsi kimi qadın və kişi hüquqlarının bərabərliyi, gender məsələləri ön plana çəkilməyə başladı.

Gender bərabərliyinin təmin edilməsi Azərbaycan dövlətinin daim diqqətində saxladığı məsələlərdən olmuşdur. Ölkəmiz müstəqilliyini əldə etdikdən, Ümummili Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizdə qadın problemlərinə daha böyük diqqət yetirilməyə başlandı. Ölkəmiz qadın siyasətinin daha da inkişaf etdirilməsi üçün qadın hüquqlarının qorunması üzrə mühüm beynəlxalq sənədlərə qoşuldu. Həmin il Pekində keçirilən IV Ümumdünya qadın Konfransında iştirak etmək üçün Dövlət Milli Şurası yaradıldı və dövlətimiz Pekin Bəyannaməsi və Fəaliyyət Platformasına qoşuldu, bu sənəd bütün dünya qadınlarının hüquqlarının qorunacağını və sülhə, gender bərabərliyinə nail olmaq üçün inkişaf proseslərində yaxından iştiraklarına mane olan amillərin aradan qaldırılacağını bəyan etmişdi. 2015-ci ildə Komitəmizin təşkilatçılığı ilə dövlətimizin bu mühüm sənədə qoşulmasının 20 illiyi qeyd olunmuşdur. Azərbaycan, eyni zamanda, BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi", “Uşaq hüquqları haqqında” Konvensiyalara qoşuldu.

Ulu Öndər qadınların idarəetmə və hakimiyyətin bütün sahələrində irəli çəkilməsini vacib bilmişdir. Onun 1998-ci il tarixli Fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması qadın məsələlərinin geniş məcrada həllinə, qadın hüquqlarının müdafiəsinin gücləndirilməsi istiqamətində əməli addımların atılmasına təkan vermişdir. Dahi şəxsiyyət Heydər Əliyevin imzaladığı fərman və sərəncamlarla, o cümlədən “Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında”, “Azərbaycan Respublikasında dövlət qadın siyasətinin gücləndirilməsi haqqında” və digər rəsmi sənədlərdə ölkəmizdə qadınların hüquqlarının müdafiəsi təmin olunub.

Bu gün də ailə, qadın və uşaq siyasəti dövlətin prioritet istiqamətlərindən biridir. Qadın hüquqları ilə yanaşı, uşaq və ailə məsələlərinin də həlli yollarının araşdırılması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət yetirdiyi sahələrdəndir. Ölkə başçısı tərəfindən 6 fevral 2006-cı il tarixli Fərmanı ilə yaradılmış Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bu siyasətin həyata keçirilməsinə öz töhfəsini verdi. Keçən müddət ərzində ölkədə ailə, qadın, uşaq siyasətinin inkişafı təmin edildi, qanunvericilik bazası təkmilləşdirildi. “Gender bərabərliyinin təminatları haqqında”, “Məişət zorakılığının qarşısının alınması haqqında” qanunlar qəbul edildi, Ailə Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə, Cinayət və Mülki Məcəllələrə mühüm dəyişikliklər edildi. Dövlət tərəfindən “Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər Dövlət Proqramı”, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” və

2011-ci ildə “Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı” qəbul edildi.

Genişmiqyaslı maarifləndirmə tədbirlərinin davamı kimi Azərbaycan Qadınlarının Qurultayları, Ümumrespublika Uşaq Forumları, Ailə Bayramları, Heydər Əliyev Fondu, BMT-nin Əhali Fondu ilə birgə “Azərbaycan ailəsi” kino festivalları yüksək şəkildə təşkil edildi. Eyni zamanda 400-ə yaxın maarifləndirici layihələr həyata keçirildi.

Ötən illər ərzində Azərbaycan qadınlarının təmsilçiliyi və iştirakçılığının artmağı onu deməyə əsas verir ki, qadınlarımız hər bir sahədə özlərini təsdiq ediblər. Xüsusən də qeyd etməliyik ki, Azərbaycanda hər bir ailənin sosial rifahını yüksəltmək, xüsusilə qadınların sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün qəbul olunmuş bir sıra dövlət proqramları ölkədə qadın sahibkarlığının inkişafına təkan vermişdir. Sahibkarlara edilən dəstəyin nəticəsidir ki, bu gün qadın sahibkarların sayı 19,4% olmuşdur.

Xüsusən də ölkəmizin Birinci Xanımı, Heydər Əliyev Fondunun Prezidenti, millət vəkili Mehriban xanım Əliyeva müstəsna fəaliyyəti ilə Azərbaycan qadın hərəkatının tarixində yeni mərhələnin açılmasına öz töhfəsini verir. İctimai fəallığı ilə Azərbaycan qadınlarına nümunə olan Mehriban xanım milli-mənəvi dəyərlərimizin qoruyucusu, xalqımızın xeyriyyəçilik ənənələrinin davamçısı kimi cəmiyyətdə böyük nüfuz qazanmışdır.

İstər qadın, istər ailə, istərsə də uşaq siyasətinin həyata keçirilməsi öz inkişaf mərhələsini yaşayır. Bütün dünya ölkələri ilə dünyanın aparıcı təşkilatlarının 2000-2015–ci illəri əhatə edən fəaliyyət planı , “Minilliyin İnkişaf Məqsədləri” özündə 8 məqsədi əhatə edir. Gender bərabərliyinin təmin edilməsi və qadınlara səlahiyyət vermək, ana sağlamlığını yaxşılaşdırmaq, uşaq ölüm hallarının azaldılması və digər təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini şərtləndirir.

Gənc ailələrin sağlamlığı, xoşbəxtliyi, firavanlığı hər zaman dövlətin qarşısında duran əsas məsələlərdəndir. Ölkə rəhbərliyi və bütün dövlət qurumları tərəfindən gənclərimizin özlərini təsdiq etmələri, uşaqların sağlam mühitdə böyümələri, keyfiyyətli təhsil alması, qız uşaqlarının erkən nikaha daxil olmasının və məişət zorakılığının qarşısının alınması üçün bütün imkanlar yaradılır. Və biz bu şəraitin ildən-ilə daha da yaxşılaşdığının şahidiyik.

Hədəflərimiz cənab Prezident İlham Əliyevin imzaladığı “Azərbaycan 2020: Gələcəyə Baxış” Konsepsiyasında aydın göstərilmişdir. Azərbaycanın inkişafı ölkədə qadın və uşaq hüquqlarının müdafiəsindən, ailələrin möhkəmliyindən asılıdır. Bizim məqsədimiz qadınların bütün sahələrdə fəallığının artırılması, milli-mənəvi dəyərlərin qorunaraq güclü təməllər üzərində ailələrin qurulması, sağlam mühitdə uşaqların böyüməsi və təhsil almasıdır. Bu missiyaya nail olmaq üçün də bütün qüvvələrimizi səfərbər etməyə, qarşımıza qoyulan vəzifələrin öhdəsindən gəlməyə çalışacağıq.

**Hörmətli oxucular!**

Fürsətdən istifadə edərək sizi qarşıdan gələn 8 Mart Beynəlxalq Qadınlar bayramı və Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, can sağlığı, uzun ömür, xoşbəxt həyat, ailələrinizə əmin-amanlıq arzulayırıq.

***Hörmətlə, Hicran Hüseynova***

# Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı

**Hörmətli xanım Hüseynova,**

BMT İnkişaf Proqramının (BMTİP) Azərbaycan Nümayəndəliyi adından Sizə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaranmasının 10 illiyi münasibətilə ən səmimi təbriklərimi çatdırıram.

Prezidentin 6 fevral 2006-cı il tarixli sərəncamı ilə təsis edildikdən bu günədək Komitə qadın məsələləri və gender bərabərliyi sahəsində dövlət siyasətinin hazırlanması və icrası işində əsas məsuliyyəti öz üzərinə götürmüşdür. Sizin rəhbərliyiniz və strateji baxışlarınız altında Komitə qadınların hüquqları və səlahiyyətlənməsi, eləcə də Qadınlara Qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv edilməsinə dair Konvensiyanın (CEDAW) icrası üzrə bütün aspektlərdə dövlət siyasətini uğurla formalaşdıran və həyata keçirən səmərəli, peşəkar və yüksək dərəcədə bacarıqlı bir quruma çevrilmişdir.

Sizin mübariz müvəkkilliyiniz sayəsində Azərbaycan gender siyasətinin icrası üçün hərtərəfli qanunvericilik və dövlət siyasəti bazası və institusional mexanizmlər yaratmışdır. Mən xüsusilə də Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Qanunun (2006-cı il) və Məişət zorakılığının qarşısının alınması haqqında Qanunun (2010-cu il) qəbul edilməsində Komitənin rolunu vurğulamaq və alqışlamaq istərdim. Bu qanunlar qadın və kişilərin evlilik yaşını bərabərləşdirmiş və milli qanunvericiliyə beynəlxalq standartlara uyğun olan digər mütərəqqi dəyişiklikləri gətirmişdir.

Biz hələ 2007-ci ildə Gender üzrə İnsan İnkişafı Hesabatı üzərində işlədiyimiz zamandan yaranmış və hal-hazırda “Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakı” layihəsi ilə davam edən uzunmüddətli əməkdaşlığımız ilə fəxr hissi duyuruq və bu tərəfdaşlığımızı yüksək qiymətləndiririk. Birləşmiş Millətlər Təşkilatı olaraq, 2015-ci ildən sonrakı Dayanıqlı İnkişaf Gündəliyinin 5-ci məqsədinə əsasən irəli sürülmüş yeni hədəflərə nail olunması işində Komitəyə hər hansı dəstəyi verməyə hazırıq.

Xanım Hüseynova, fürsətdən istifadə edərək Sizə ən dərin ehtiramımı bildirirəm.

**Hörmətlə,**

**Ercan Murat**

# BMT-nin Əhali Fondu

**Hörmətli x-m Hicran Hüseynova,**

Yaxın zamanlarda Azərbaycan Respublikası öz müstəqilliyinin 25 illiyini qeyd edəcək. Bu illər ərzində ölkəniz nəzərəçarpan inkişafa nail olmuşdur və bu uğura öz töhfəsini verən qurumlardan biri məhz sizin sədr olduğunuz Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsidir. On ildir ki, Komitə öz mandatına uyğun olaraq gender bərabərliyini və heç bir qadının inkişafdan kənarda qalmamasını təmin etmək məqsədilə ailələrə, qadın və uşaqlara dəstək və qayğı göstərir.

Böyük məmnuniyyət hissi ilə qeyd etməliyəm ki, Dövlət Komitəsi BMT-nin Əhali Fondunun Azərbaycan ölkə ofisinin uzun-müddətli və yaxın tərəfdaşlarıdır. Əksər hallarda çox həssas məsələlərin həll olunması istiqamətində Komitənin innovativ və açıq düşüncəli yanaşmasını, habelə ortaq məqsədlərə nail olmaqda nümayiş etdirdiyi əməkdaşlıq ruhu tərəfimizdən yüksək qiymətləndirilir.

Bütün ailələr, qadınlar və uşaqlar tam və sağlam həyat yaşamağa layiqdirlər. BMT-nin Baş Assambleyası qəbul etdiyi Dayanıqlı İnkişaf Məqsədləri adlı sənədində sözü gedən təməl prinsipləri təsbit etmişdir. Dayanıqlı İnkişaf Məqsədləri yoxsulluq və aclıq, ölkələr arasında bərabərsizliyin aradan qaldırılması, sülhməramlı, ədalətli və inklüziv cəmiyyətlərin qurulması, insan hüquqlarının müdafiəsi və gender bərabərliyinin təşviqi, qadın və qızların səlahiyyətləndirilməsi, habelə 2030-cu ilə qədər yer kürəsinin və təbii ehtiyatların dayanıqlı müdafiəsini təmin etmək kimi vəzifələri qarşısına qoyur.

Ölkənizdəki qadın və qızların adekvat səviyyədə təşviq və müdafiə olunması, o cümlədən onların potensiallarının reallaşdırılmasını təmin etmək məqsədilə bu təbəqənin hüquqlarının qorunması istiqamətində nümayiş etdirdiyiniz siyasi dəstək, şəxsi öhdəlik və nümunəvi təbliğat tədbirlərinə görə sizə səmimi qəlbdən minnətdarlığımı çatdırmaq istəyirəm.

Dövlət Komitəsinin 10 illiyi münasibətilə ən xoş arzularımı Sizi çatdırır və davamlı, yaxın və əhəmiyyətli əməkdaşlığımızın inkişaf etməsinə ümid edirəm.

**Səmimiyyətlə,**

**Karl Kulessa**

# Azərbaycandakı Nümayəndəliyi

**Hörmətli Hicran xanım,**

Sizi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Azərbaycanda göstərdiyi fəaliyyətinin on illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm!

On il təqdirəlayiq bir müddətdir və Azərbaycan Hökumətinin qadınlar və uşaqların məsələlərinimilli prioritetlərdən biri kimi öz gündəliyinə daxil etməsi bunun bariz nümunəsidir.

Sizin və komandanızın fəaliyyəti valideyn himayəsindən məhrum, əlilliyi olan və məcburi köçkün uşaqlar da daxil olmaqla həddindən artıq həssas uşaqlara qayğı göstərən hər birimiz tərəfindən yüksək qiymətləndirilir.

Yeni ideyalara, tədqiqata və həssas uşaqlar və qadınlara hədəflənmiş sosial davranışa göstərdiyiniz dəstək milli qanunvericiliyinin və proqramların formalaşmasında mühüm rol oynamışdır.

Fürsətdən istifadə edərək, UNICEF-in fəaliyyətlərinə verdiyiniz dəyərli və davamlı dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm.

**Hörmətlə,**

**AndroŞilakadze**

**UNICEF-in Azərbaycandakı Nümayəndəliyinin Rəhbəri**

UNFPA Eastern Europe & Central Asia

**Hörmətli prof Hüseynova,**

Sizi, 6 Fevral 2016-cı i tarixində Ailə, Uşaq və Qadın Problemləri üzrə Dövlət Komitəsinin 10 illiyinin qeyd edilməsi münasibətilə təbrik edirəm. Mən Azərbaycan hökümətini, xüsusən də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsini gender bərabərliyinin təmin və təşviq edilməsi sahəsində əldə etdiyi mühüm irəliləyiş münasibətilə təbrik etmək istərdim.

Qadın və qızlara qarşı zorakılıq, erkən nikahlar, gender əsaslı ayrı-seçkilik kimi insan haqlarını və azadlıqlarını pozan problemlərə qarşı mübarizədə Azərbaycan Hökumətinin göstərdiyi səylər uğurlu platformanın göstəricisidir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə BMT Əhali Fondu arasındakı əlaqələr ölkədə qadın və qızların hüquqlarının inkişaf etdirilməsi, qorunması və həyata keçirilməsinin təmin edilməsində öhdəlik və effektiv əməkdaşlığın mövcudluğunun əyani sübutudur.

BMT Əhali Fondunun Şərqi Avropa və Mərkəzi Asiya üzrə Regional Ofisi adından, qurumlarımız arasında faydalı əməkdaşlığa yüksək qiymət verir və BMT Əhali Fondunun Azərbaycandakı nümayəndəliyinə göstərilən dəstəyə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Mən inanıram ki, hər qadın və qızın zorakılıqdan azad olması və xoş həyat yaşaması kimi ortaq məqsədlərimiz keçirəcəyimiz görüşlər nəticəsində reallaşacaq. Və bu da öz növbəsində, Azərbaycanda və regionda gender bərabərliyi ilə bağlı məsələlərdə yüksək uğurlara və Davamlı İnkişaf Məqsədlərinin gender yönümlü hədəflərinə nail olunmasına öz töhfəsini verəcəkdir.

Sizə dərin ehtiramımı və ən xoş arzularımı ifadə edirəm.

**BMT Əhali Fondunun Şərqi Avropa və**

**Mərkəzi Asiya üzrə Regional Ofisinin direktru cənab Heimo Laakkonen**

german cooperation
DEUTSCHE ZUSAMMENARBEIT

# Yerli Özünü İdarəetmə Proqramı

Implemented by

giz Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ) GmbH

**Hörmətli Hicran xanım!**

Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin Yerli Özünüidarəetmə layihəsi Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə DövlətKomitəsinin yaradılmasının 10 illiyimünasibətilə başda Sizin şəxsiniz olmaqla Sizi və əməkdaşlarınızı səmimi qəlbdən təbrik edir və gələcək işlərinizdə uğurlar arzulayırıq.

Düşünürük ki, ötən onillikdə apardığınız işlər və əldə etdiyiniz çoxsaylı uğur və nailiyyətlər yalnız Komitə üçün deyil, bütün ölkə, Azərbaycan xalqı üçün əlamətdar olmuşdur.

Bir daha, uğurlarınızın davamlı olmasını arzulayaraq, göstərdiyiniz diqqət və dəstəyə görə təşəkkür edirik.

**Hörmətlə,**

**Axel Muller**

**Yerli Özünü İdarəetmə Proqramı**

**Azərbaycan üzrə Qrup Rəhbəri**




# Avropa İttifaqının Azərbaycandakı Səfiri

**Hörmətli xanım Hüseynova,**

Aİ Nümayəndəliyi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təsis olunmasının 10-cu ildönümü münasibətilə Sizi təbrik edir. Komitə qadın və uşaq hüquqlarının təşviqi, əhali arasında məlumatlandırmanın artırılması, qanunvericilik təşəbbüslərinin pilot

sınanması, hökumət, qeyri-hökumət və beynəlxalq iştirakçı tərəflər arasında müvafiq məsələlərin əlaqələndirilməsi kimi sahələrdə əvəzolunmaz rol oynayır.

Nümayəndəlik Tvinniq və çoxsaylı TAİEX layihələri çərçivəsində Komitə ilə əməkdaşlıq etməkdən zövq almışdır. Məişət zorakılığı, gender bərabərliyi, iqtisadiyyat sahəsində qadınların səlahiyyətlərinin artırılması və digər sahələrdə davamlı əməkdaşlıq və uğurlu nəticələr əldə etmək arzusundayıq.

**Səmimiyyətlə,**

**Avropa İttifaqının Azərbaycandakı Səfiri**

**Malena Mard**

T.C.
AİLE VE
SOSYAL POLİTİKALAR
BAKANLIĞI

**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran xanım Hüseynovaya**

Tarixi dostluq və qardaşlıq əlaqələri ilə bağlı olduğumuz, eyni idealları və mənəvi dəyərləri paylaşdığımız

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılmasının 10-ci il dönümü münasibətilə Sizi ürəkdən təbrik edir, uğurlarınızın davamını diləyirəm.

Aidiyyəti istiqamətdə birgə əməkdaşlığa və aramızda mövcud olan güclü münasibətləri daha da inkişaf etdirməyə hər zaman hazır olduğumuzu bilməyinizi istərəm.

Bu münasibətlə Komitənizin yubileyini bir daha təbrik edir, Sizə cansağlığı və xoşbəxtlik arzu edirəm.

**Dr. Sema Ramazanoğlu**

**Türkiyə Cümhuriyyəti**

**Ailə və Sosial Siyasətlər naziri**

Министерство труда и социальной защиты Республики Беларусь

## Министр труда и социальной защиты Республики Беларусь

## (Belarus Respublikasının Əmək və Sosial Müdafiəsi Nazirliyi)

İcazə verin Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi adından Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəhbərliyini və bütün əməkdaşlarını Komitənin yaranmasının 10 illiyi münasibəti ilə təbrik edək.

Ailə,qadın və uşaqların vəziyyətinin yaxşılaşdırılması istiqamətində dövlət siyasətini həyata keçirən Komitə dövlətin sosial sahədə inkişafı və vətəndaşların həyat səviyyəsinin yüksəldirilməsinə əhəmiyyətli töhfəsini verir.

Sizin fəaliyyət istiqamətləriniz bütün cəmiyyətlərin diqqətinin mərkəzindədir, ''Möhkəm Ailə-Möhkəm dövlət'' tezisi bugün də öz aktualığını saxlamaqdadır. Ailənin prioreteti ideologiyası,onun həyat üçün dəyərliyiyi, insanın inkişafı və cəmiyyətin gücləndirilməsi bir çox beynəlxalq hüquqi aktlarda öz əksini tapmışdır. Olduqca vacibdir ki, ailə insitutunun möhkəmləndirilməsi və inkişafı,ənənəvi ailə dəyərlərinin bərpa olunması və qorunması,uşaqlı ailələrin vəziyyətinin yaxşılaşdırılması anlayışları müasir dünyada saxlanılmaqdadır-bu hər bir dövlətin çiçəklənməsi və rifahının əsası və təməlidir.

Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi ilə Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi arasında 2010-cu ildə Bakı şəhərində qarşılıqlı əməkdaşlıq üzrə imzalanmış Anlaşma Memorandumu çərçivəsində bizim göstərdiyimiz qarşlıqlı fəaliyyət dövlət ailə siyasətinin həyata keçirilməsi, gender bərabərliyinin, qadınların məşğulluğunun təmin edilməsi kimi aktual məsələr üzrə açıq dialoqun və təcrübə mübadiləsinin təşkili dövlət siyasətinin həyata keçirilməsində və qarşımızda duran məqsədlərin uğurla həyata keçirilməsində mühüm əhəmiyyət təşkil edir.

Biz, qurumlarımız arasında əməkdaşlığın gələcək inkişafına ümid edir və inanırıq ki, sizin yüksək peşəkarlığınız gələcəkdə də dövlətinizin inkişafı və çiçəklənməsinə yönələn fəaliyyətlərin həyata keçməsinə öz töhfəsini verəcəkdir.

Səmimi qəlbdən, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəhbərliyinə və bütün əməkdaşlarına möhkəm can sağlığı, tükənməz enerji və rifah arzulayıram.

**Marianna Şyotkina**

**Belarus Respublikasının Əmək və Sosial Müdafiə Naziri**



# İran İslam Respublikası Prezidentinin Ailə və qadın məsələləri üzrə müavini

**Hörmətli Hicran xanım!**

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaranmasının 10-cu ildönümü münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Fürsətdən istifadə edərək, bütün hədəf və proqramlarınızın uğurla reallaşdırılması məqsədilə Allah Təaladan Sizə möhkəm cansağlığı və müvəffəqiyyətlər arzulayaraq, İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasındakı münasibətlər və əməkdaşlıq əlaqələrinin bütün sahələrdə, xüsusilə də ailə və qadın məsələləri sahəsində daha artlq genişlənəcəyinə ümid edirəm.

**Hörmətlə,**

**Şəhindoxt Mövlaverdi**

**İran İslam Respublikası Prezidentinin**

**Ailə və qadın məsələləri üzrə müavini**

# Küveyt Dövləti Qadın Məsələləri üzrə Komitəsi

**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran xanım Hüseynovaya**

Azərbaycan Respiblikasının Ailə, Qadın və Uşaq Məsələləri üzrə Dövlət Komitəsinin yaradılmasının 10 illiyi münasibətilə sizi təbrik edir və bu dövr ərzində sizin hörmətli komitənizin idarə olunmasında yüksək və səmimi səylərinizi, eyni zamanda ailə, qadın və uşaq məsələləri ilə bağlı bütün sahələrdə əldə etdiyiniz nailiyyətlərinizi qiymətləndirirəm. Azərbaycan ailəsinin arzu və ümidlərinin həyata keçirilməsi və Azərbaycan cəmiyyətinin rolunun ölkə, regional və beynəlxalq səviyyələrə yüksəldilməsi məqsədilə qadınlarının hüquqlarının qorunması, onların rolunun artırılması və inkişaf etdirilməsi yolunda qadın məsələləri ilə bağlı dövlət siyasətinin icra olunmasında strateji baxışlarınızı və töhfələrinizi dəyərləndirir, həmçinin, beynəlxalq səviyyəli konfranslarda davamlı olaraq iştirak etmə cəhdlərinizi qiymətləndiririk.

Iki dost ölkə arasında əməkdaşlıq haqqında Sazişin canlandırılmasına, beynəlxalq və regional arenalarda iki ölkənin qadın məsələlərinin xidmətinə yönəlmiş mövqelərin əlaqələndirilməsində səmimi səylərinizi dəyərləndiririk.

Sizə tərəqqi və inkişaf arzu edirik.

**Şeyxa Lətifə Əl-Fəhd  Əl-Səlim Əl-Sabah**

**Qadın Məsələləri üzrə Komitənin Sədri**



## Fransa Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri

**Xanım Sədr,**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaranmasının onuncu ildönümü münasibətilə, sosial məsələlər sahəsində on il ərzində apardığınız uğurlu iş üçün, Sizə səmimi təbriklərimi çatdırmaq istərdim. Sizin şəxsi iştirakınız sayəsində, Fransa və Azərbaycan arasında nümunəvi əməkdaşlıq yaranıb və bu da, sizin ölkədə qadınların vəziyyətinin əhəmiyyətli şəkildə inkişafına təkan verib.

Çox istərdim ki, bu əməkdaşlığımız, xüsusən də, başçılıq etdiyiniz Dövlət Komitəsi və Fransa Respublikası Qadın Hüquqları, Şəhər, Gənclər və İdman Nazirliyi arasında 2014-cü ildə imzalanmış ikitərəfli əməkdaşlıq haqqında anlaşma memorandumu çərçivəsində, davam və inkişaf etdirilsin. Bu məqsədlə lazımi dəstək üçün Fransanın Azərbaycandakı səfirliyinin komandası sizin ixtiyarınızdadır.

Həmçinin ikitərəfli əməkdaşlığın perspektivləri haqqında bu günkü çox maraqlı görüşümüz üçün Sizə təşəkkür etmək istərdim. Bizim nəzərdə tutduğumuz mövzuların nəticələri barədə Sizinlə mütləq əlaqə saxlayacağam.

**Xanım Sədr,**

Gələcək fəaliyyətinizə uğurlar arzulayaraq, Sizə olan ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**
**Fransa Respublikasının**
**Azərbaycan Respublikasındakı**
**fövqəladə və səlahiyyətli səfiri Orelia Buşeç**

Azərbaycan Respublikasının Səfirliyi • Rusiya Federasiyası • Moskva
Посольство Азербайджанской Республики
Российская Федерация • Москва

**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran xanım Hüseynovaya**

**Hörmətli Hicran xanım!**

Sizi Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaranmasının 10 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

İlk gündən Sizin rəhbərliyiniz altinda fəaliyyət göstərən Dövlət Komitəsi cəmiyyətin həssas təbəqəsi olan qadın və uşaqların problemlərinin həlli istiqamətində Prezidentimiz tərəfindən müəyyən edilmiş vəzifələrin öhdəsindən layiqincə gəlmiş, bu sahədə mühüm işlər görmüş, ötən illər ərzində daha da inkişaf edərək, nüfuzlu dövlət qurumuna çevrilmişdir.

**Hörmətli Hicran xanım,**

Bir daha Sizi və Dövlət Komitəsinin bütün kollektivini ürəkdən təbrik edir, ictimai-siyasi fəaliyyətinizdə müvəffəqiyyətlər, dövlətçilik tariximizdə əlamətdar səhifələr açacaq yeni-yeni nailiyyətlər arzu edirəm.

**Hörmətlə,**

**Fövqəladə və Səlahiyyətli**

**Səfir Polad Bülbüloğlu**



# AZƏRBAYCANDA AİLƏ, QADIN VƏ UŞAQ SİYASƏTİ GÜCLƏNDİRİLİR

Bu il Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaranmasından 10 il ötür. Dövlətimiz bu sahədə böyük uğurlar əldə etmişdir ki, bu da heç də asan olmamışdır. Komitə 2006-cı ildə yaradılsa da, bu proses hələ 90-cı illərdən başlamışdır.

1993-cü ildə Respublikamızın tarixinin həlledici dövrlərində Ulu Öndər Heydər Əliyevin xalqın tələbi və arzusu ilə hakimiyyətə ikinci dəfə gəlişi Azərbaycanı vətəndaş müharibəsindən, parçalanıb dünya xəritəsindən silinmək təhlükəsindən xilas etdi. Qısa vaxt ərzində həm hərbi, həm də iqtisadi böhrandan çıxış yolları tapıldı və ölkədə yaranan ictimai siyasi stabillik dövlət siyasətinin bütün sahələri kimi bu istiqamətlərin inkişafına da güclü stimul verdi. 1995-ci ildə Pekində keçirilmiş “IV Ümumdünya Qadın Konfransı”nda Azərbaycan qadınlarının iştirakı isə müasir qadın hərəkatına yeni nəfəs gətirdi. Qeyd etmək lazımdır ki, Ermənistanın hərbi təcavüzü ilə üzləşən, ərazisinin 20%-ni itirən, müharibənin ağrı-acılarını yaşayan, bir milyon qaçqın və məcburi köçkünü olan ölkəmizin qadınlarının bu konfransda iştirakı olduqca böyük əhəmiyyət kəsb edirdi. Konfransda qadınların cəmiyyətdə vəziyyətinin yaxşılaşdırılması sahəsində 12 strateji istiqamət müəyyən edildi və dünyanın 189 ölkəsi qadınların siyasi, iqtisadi və sosial vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində Pekin Bəyannaməsi və Fəaliyyət Platforması qəbul etdi. Bu gün qürurla deyə bilərik ki, həmin konfransda ölkəmizi layiqincə təmsil etmiş qadınların əksəriyyəti rəhbər vəzifələrdə çalışır, ölkənin ictimai-siyasi həyatında aktiv iştirak edirlər.

1995-ci ildə Respublikamız BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi" barədə Konvensiyasına qoşulmuşdur. Bu demokratik qərar ölkədə qadınların ictimai-siyasi, sosial-mədəni aktivliyinin, fəallığının artması üçün impuls rolunu oynamışdır. Eyni zamanda qadınların hüquq bərabərliyi, cəmiyyətdəki aparıcı rolu 1995-ci ildə qəbul olunmuş Müstəqil Azərbaycanın ilk

Konstitusiyasında da, öz əksini tapmış, daha sonra mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi üçün bir sıra qanunlar qəbul olunmuşdur.

Müstəqillik əldə edildikdən sonra, böyük siyasi iradə tələb edən məsələlərdən biri də ölkəmizdə bu sahədə fəaliyyət göstərən xüsusi dövlət qurumunun yaradılması idi. Bunun nəticəsi olaraq, Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 1998-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Azərbaycanın tanınmış ictimai-siyasi xadimi, professor Zəhra xanım Quliyeva Komitənin sədri təyin edildi. Qeyd etməklazımdır ki, MDB ölkələri içərisində yeganə bizim ölkəmizdə belə bir dövlət qurumu var.

Ölkə rəhbərinin "Azərbaycanda qadınların rolunun artırılması",“Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” Sərəncamları qadınların istənilən sahədə fəaliyyət göstərməsi üçün münbit şərait yaratdı. Qadınların ictimai-siyasi fəaliyyətinin artırılmasında bu sənədlərin əhəmiyyəti çox böyükdür.

Zaman keçdikcə, ölkədə ailə, qadın və uşaq məsələləri kompleks yanaşma tələb edirdi. Və bu zərurət yeni Komitənin yaranmasına səbəb oldu. Möhtərəm Prezident İlham Əliyevin 6 fevral 2006-cı il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Yarandığı gündən etibarən Komitə ailə, qadın və uşaq hüquqlarının müdafiəsi sahələrində vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir, bu siyasətin həyata keçirilməsi və inkişafını təmin edir, qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

Ötən müddət ərzində müasir inkişaf dövrünü yaşayan Azərbaycanda çox mühüm dəyişikliklər, gözəçarpan yüksəliş baş vermişdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin uğurlu dövlət idarəçiliyi, onun başçılığı ilə aparılan kompleks islahatlar, bölgələrin inkişafına yönəldilən sosial-iqtisadi proqramlar, dünya iqtisadi sisteminə sürətli inteqrasiya, Azərbaycanın regionda lider dövlətə çevrilməsini şərtləndirmişdir. Əlbəttə ki, ölkənin inkişafı vətəndaşların da yaşayışınamüsbət təsir göstərir.

Ailə, Cinayət, Mülki, İnzibati Xətalar Məcəllələrinə, “İcra haqqında” Qanuna edilən dəyişikliklər,“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında”, “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunların qəbul edilməsi insanların təfəkküründə yeni düşüncə tərzinin formalaşmasına təkan verməyə başladı. Eyni zamanda, bir çox stereotiplərin qırılmasına səbəb oldu.

Azərbaycanda hər bir ailənin sosial rifahını yüksəltmək, xüsusilə qadın və uşaqların sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün Hökumət mütəmadi olaraq zəruri tədbirlər həyata keçirir. Qəbul olunmuş bir sıra dövlət proqramları, o cümlədən, “Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf”, “Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi”,“Azərbaycan gəncliyi”,“Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ”Dövlət Proqramları, “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı” və digər sərəncamlar hər bir vətəndaşımızın hüquq və azadlıqlarının təmin edilməsi, xüsusilə, qadın və uşaq hüquqlarının müdafiəsinin reallaşdırılması üçün bütün imkanlar yaradır.

Hər bir cəmiyyətin əsasını, nüvəsini ailə təşkil edir. Son statistik hesablamalara görə hazırda ölkəmizdə iki milyondan çox ailə yaşayır. Bu ailələrin sağlamlığı, xoşbəxtliyi, rahatlığı üçün dövlət və cəmiyyət məsuliyyət daşıyır. Azərbaycan xalqı hər zaman ailə dəyərlərini, ailə ləyaqətini hər şeydən uca tutmuş və bu milli adət-ənənəyə çevrilmişdir. Ölkə vətəndaşları bu qiymətli sərvəti yad təsirlərdən qorumaqla yanaşı, dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək zənginləşdirməli, gənc nəsli sağlamruhdatərbiyələndirməlidir.Müstəqil dövlətimizin ali sənədinin - Konstitusiyanın müəllifi olan Ulu Öndər Heydər Əliyev burada ailənin mahiyyətini, ailəüzvlərinin vəzifə və hüquqlarını da xüsusi maddələrlə müəyyən etmişdir. Eləcə də, 2000-ci ildə Ailə Məcəlləsinin qəbul olunması nəticəsində ailə üzvlərinin digər hüquq və vəzifələri ilə yanaşı, mülki hüquqları da təsbit olunmuşdur. Ailə üzvlərinin, xüsusilə ana və uşaqların sağlamlığının mühafizəsi çox önəmli məsələlərdir.Bu, bir həqiqətdir ki, sağlam ailə sağlam nəsil,

sağlam millət deməkdir. Bu baxımdan, Ulu Öndərin imzaladığı "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunu xüsusilə qeyd etmək lazımdır. Hazırda Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının rəhbərliyi altında və xüsusi tapşırığı ilə əhalinin icbari tibbi müayinədən keçirilməsi prosesi uğurla həyata keçirilir. "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair","Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına", "Talassemiya ilə mübarizəyədair" Dövlət Proqramları təsdiq edilmiş,eyni zamanda, **tərəflərin nikahdan əvvəl məcburi tibbi müayinədən keçməsi ilə bağlı** Ailə Məcəlləsinə dəyişiklik edilmişdir. Komitə bu sahədə dövlət proqramlarının uğurla reallaşdırılması və digər dövlət qurumları ilə səylərin əlaqələndirilməsi istiqamətində ardıcıl iş aparır.

Bu gün cəmiyyətimiz öz layiqli, sosial-mənəvi inkişafını təmin edən, həyat strategiyasını gerçəkləşdirə bilən, fəal, güclü ailələrin formalaşması üçün çalışır. Hazırda, ölkəmizdə ailələrin rifahının daha da yaxşılaşdırılması istiqamətində olduqca mühüm tədbirlər həyata keçirilir. Dağlıq Qarabağ münaqişəsi nəticəsində ciddi sosial-psixoloji çətinliklərlə qarşılaşan qaçqın və məcburi köçkün ailələrinə, həmçinin aztəminatlı və çoxuşaqlı ailələrə dövlət başçımızın daimi diqqəti sayəsində həmin ailələrin bir çox problemləri artıq həll olunmuşdur. Əsas məqsədlərdən biri də həssas qruplardan olan ailələrə sadəcə yardım göstərmək deyil, eyni zamanda, onları ictimai həyata cəlb etməkdir. Bununla əlaqədar, qaçqın və məcburi köçkün ailələri, məhkum qadınlar və tərbiyə müəssisələrində olan uşaqlar üçün xarici dil, kompyuter və peşə kurslarında mütəmadi olaraq təlimlər keçirilir.

Ümumiyyətlə, bu gün ailə institutunun cəmiyyətdəki mövqeyinin möhkəmləndirilməsi və sosial proseslərə pozitiv təsirinin təmin edilməsi bütün dünyada aktual problem kim qarşıda durur. Təsadüfi deyil ki, dünya ictimaiyyəti hər il mayın 15-də beynəlxalq səviyyədə Ailə gününü qeyd edir.2008-ci ildən etibarən Komitə tərəfindən 15 may Beynəlxalq Ailə günü ərəfəsində keçirilən "Ailə bayramı"nda, bütün Azərbaycanın rayonlarını təmsil edən, 100-ə yaxın ailə iştirak edir. Bu gün ölkəmizdə xüsusi istedadı, bədii və musiqi yaradıcılığı, yüksək idman göstəriciləri, digər qabiliyyət və maraqları ilə seçilən ailələrimiz çoxdur. Həmin ailələrin təcrübəsi hamıya, xüsusən də gənclərənümunədir. 2009-cu ildən başlayaraq Komitə, Heydər Əliyev Fondu və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə, "Azərbaycan ailəsi" adlı film festivalı uğurla həyata keçirilir. Burada əsas məqsəd ailə dəyərlərinin, milli-mənəvi dəyərlərin gənclər arasında təbliğidir. Eyni zamanda, bu sahədə mövcud problemləri işıqlandırmaqla, onların həlli yollarının axtarılması və ailə institutunun daha da güclənməsinə nail olmaqdır.





Azərbaycan ailələri möhkəmliyi və ailə ənənələrinə sadiqliyi ilə hər zaman seçilmişlər. Ailə üzvləri arasında səmimi, mədəni münasibətlər, böyük-kiçik yerinin tanınması, valideyn-övlad münasibətlərinin düzgün qurulması ailələrimizə xas olan keyfiyyətlərdəndir. Ölkəmizdə hər il yüzlərlə, minlərlə ailədə briliyant, qızıl, gümüş yubileylərin keçirilməsi Azərbaycanda ailə modelinin qorunmasının və nəsildən-nəsilə yaşadılmasının bariz nümunələridir.Bununla belə, müasir Azərbaycan ailəsi öz quruluşunda əvvəlki ənənəvi ailələrdən əhəmiyyətli dərəcədə fərqlənir: belə ki, son illər ailələr bir sıra müvəqqəti və daimi

xarakterli problemlərlə qarşılaşırlar. Cəmiyyətdə məişət zorakılığı, selektiv abortlar, erkən nikah və təhsildən yayınma halları, intiharlar, xüsusilə uşaq intiharlarının sayının artması müşahidə olunmaqdadır, tək valideynli, tək uşaqlı ailələrin sayı artıb, üç və dörd nəslin bir ailədə yaşaması halları azalıb. Ər-arvadın bir-birindən təcrid olunması və uzaqlaşması, boşanmaların sayının artması, nikah olmadan birgə yaşama və nigahdankənar doğum adi hala çevrilmişdir.Boşanandan sonra qadın və uşaqların qarşılaşdıqları problemlər isə xoşagəlməz halların yaranmasına gətirib çıxarır. Boşanan qadınlar yaşayış yeri və mülkiyyət hüququndan məhrum olur, uşaqlar üçün nəzərdə tutulmuş aliment ödənilmir.Əlbəttə, bütün bu məsələlərin həll olunması üçün yeni sənədlərin hazırlanmasına ehtiyac yaranır. Bu istiqamətdə“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası çərçivəsində "Azərbaycan ailəsi Strategiyası" hazırlanır və artıq yekunlaşmaq üzrədir.

Əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, yoxsulluğun azaldılması, davamlı iqtisadi inkişafa nail olunması, bütün sahələrdə gender bərabərliyinin təmin olunması istiqamətində hökumətin həyata keçirdiyi tədbirlər öz bəhrəsini verir. Azərbaycan əhalisinin ümumi sayının 50,2% -ni təşkil edən qadınlar cəmiyyətin müxtəlif sferalarında çalışırlar. Onların ictimai-siyasi, elmi, mədəni, sosial-iqtisadi və digər sahələrdə əldə etdikləri uğurlar, bütövlükdə dövlətimizin nailiyyətidir. Azərbaycanın demək olar ki, əksər rayonlarında İcra Hakimiyyəti başçılarının müavinləri qadınlardır. Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi 28%, sahibkarlar arasında isə 19,4% -dir. Bədən tərbiyəsi və idmanla məşğul olanların 39,8% -i qadınlardır. Milli Məclisdə qadın millət vəkillərinin sayı da artır. Əgər 1990-cı ildə bütün deputatların 4,3%-ni, 2000-ci ildə 10,7%-ni qadınlar təşkil edirdisə, 2010-cu ildə bu göstərici 16%-ə çatmışdır. 2009-cu ildəki seçkilərdəbələdiyyə üzvü seçilmiş qadınlar 26,7% olub. 2013-cü ildə isə bələdiyyə üzvü seçilmiş qadınların sayı 35% təşkil etmişdir. 2015-ci ildə keçirilən parlament seçkilərində də qadın millət vəkillərinin sayı artaraq 16,8%-əyüksəlmişdir. Eləcə də, hüquq-mühafizə və məhkəmə orqanlarında, diplomatik sahədə çalışan qadınlarımızın sayı ildən-ilə artmaqdadır. Bu gün aktual məsələlərdən biri də, kənd və rayonlarda yaşayan qadınların iştirakçılığının artırılmasıdır. Bu məqsədlə Komitə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birgə iki illik “Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı” texniki yardım layihəsi həyata keçirir. Artıq Sabirabad, Neftçala və Masallıda Qadın Resurs Mərkəzləri yaradılmış, onlarla qadın öz biznesini qurmuşdur.






Ölkəmizdə xüsusilə, qadın sahibkarlığının inkişafı istiqamətində müsbət nəticlər var, lakin bu sahədə də fəaliyyət bir qədər də gücləndirilməlidir. BMT-nin Avropa İqtisadi Komissiyası vəMərkəzi Asiya Ölkələrinin iqtisadiyyatı üzrə Xüsusi Proqram çərçivəsində bir neçə konfrans və forumlar keçirilmişdir. Azərbaycan Respublikası bu tədbirlərdə aktiv iştirak etmişdir. Qeyd etmək lazımdır ki, 2012-ci ildə birgə təşkilatçılıqla Qadın sahibkarların III Forumu da Bakıda keçirilmişdir. SPEKA - ya sədrlik edən Azərbaycan regionda qeyd olunan məsələləri xüsusi diqqətdə saxlayır. Digər mühüm bir tədbir isə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin nazirlərinin “İnkişafda qadınların rolu” mövzusunda V

konfransı olmuşdur. Möhtərəm Prezident İlham Əliyev cənablarının Konfrans iştirkaçılarına müraciəti dövlətimizin bu məsələyə xüsusi maraq və diqqət göstərdiyini bir daha sübut etmişdir.

Azərbaycan Respublikası Qadınları təşkilatlanaraq problemləri müzakirə edir, bu istiqamətdə gələcəkdə görüləcək məsələləri dövlət və cəmiyyət qarşısında qaldırır. Bu baxımdan, 1998, 2003, 2008 və 2013-cü -cü illərdə keçirilmiş Azərbaycan Qadınlarının Qurultayları ölkədə qadın hərəkatının fəallaşmasının təsdiqidir. Azərbaycanda fəaliyyətdə olan ailə, qadın, uşaq yönümlü QHT-lər respublikada formalaşan vətəndaş cəmiyyətinin çox mühüm tərkib hissəsidir. Vətəndaş cəmiyyətinin inkişafında Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının böyük rolu bardır. 2010-2015-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası tərəfindən Ailə,Qadın və Uşaqməsələləri üzrə 331 layihəyə maliyyə dəstəyi verilmişdir.Qadınların ictimai aktivliyi ilə yanaşı, onların siyasətdə iştirakçılığı da artmaqdadır. Hazırda minlərlə qadın müxtəlif partiyaların sıravi və ya Siyasi Şurasının üzvü kimi fəaliyyət göstərir. Məsələn, Yeni Azərbaycan Partiyasının qadın üzvlərinin sayı ildən ilə artır. Beləki, əgər 2010-cu ildə partiya üzvləri arasında qadınların xüsusi çəkisi 43,5%-idisə, 2014-cü ildə bu göstərici 46%-ə qalxmışdır. Onların arasında tanınmış elm, mədəniyyət və incəsənət xadimləri, iqtisadiyyat və digər sahələrdə çalışan qadınlar vardır. Siyasi partiyalarda və qeyri -hökumət təşkilatlarında fəaliyyət göstərən, rəhbər vəzifələrdə çalışan qadınların da sayının artması cox mühüm nailiyyətdir. Xüsusilə, həmin partiyalarda yaradılan qadın şuraları və yerlərdəki şöbələri öz fəallığı ilə fərglənirlər. Bu gün Yeni Azərbaycan Partiyasının sədr müavini olan Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva bir çox ictimai-siyasi xadimlərə nümunə olacaq işlər görür. Onun təşəbbüsü və dəstəyi ilə yalnız Azərbaycanda deyil, Amerikada, Avropanın bir çox ölkələrində, Müstəqil Dövlətlər Birliyi respublikalarında, müsəlman ölkələrində bir sıra sosial, elm və təhsil, İKT, mədəniyyət sahələrində layihələr həyata keçirilir. Azərbaycan mədəniyyətinin, müsiqisinin, incəsənətinin, ədəbiyyatının, tarixinin dünyada tanınmasında Mehriban xanım Əliyevanın rolu danılmazdır. Məhz bir çox ölkələrin birinci xanımları onun fəaliyyətindən yararlanır, təcrübəsindən istifadə edirlər. Əlbəttə, bu, bizim üçün fəxrdir.




Ümumiyyətlə, qeyd etmək lazımdır ki, gender bərabəliyi və qadınların imkanlarının genişləndirilməsi inkişafın fundamental əsasıdır və qloballaşma prosesində önəmli yer tutur. Qadınların iqtisadi cəhətdən gücləndirilməsi də mühüm məsələlərdəndir. Az təhsilli və iqtisadi asılılığı olan qadınlar daha çox zorakılığa məruz qalır. Belə qadınlar fiziki, psixoloji problemlərlə yanaşı, həm də iqtisadi problemlərlə üzləşirlər. Əlbəttə bu istiqamətdə bir sıra işlər görülür. Həyata keçirilən dövlət qadın siyasəti nəticəsində son zamanlar qadınların ictimai-siyasi sahədə təmsilçiliyinin artması bu istiqamətdə işin aparılmasını daha da asanlaşdırır. Bütün rayonlarda monitorinq qrupu yaradılmışdır.Çox yaxşı haldır ki, məişətzorakılığından zərər çəkmiş şəxslərə sosial xidmət göstərilməsi üçün akkreditasiya olunmuş qeyri-dövlət mərkəzlərin sayı ildən-ilə artır. Məişət zorakılığı halları ilə əlaqədar sistematik məlumatın toplanmasına başlanmışdır.Pilot layihə kimi, ilkin onlayn məlumat bazası artıq hazır vəziyyətə gətirilmişdir.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında gender əsaslı zorakılıq hallarının qarşısının alınması, ölkədə gender bərabərliyinin təmin edilməsi üzrə tədbirlərin görülməsi məsələləri öz əksini tapmışdır.

Hər bir dövlətin sağlam gələcəyinin təminatı həmin ölkənin uşaqlarının necə müdafiə olunmasından asılıdır.Bu müdafiənin daha möhkəm olması üçün müxtəlif beynəlxalq təşkilatlar yaradılır, qlobal səviyyəli

sənədlər qəbul olunaraq imzalanır, forumlar, tədbirlər həyata keçirilir. Hazırda respublikada iki milyon beş yüz mindən çox uşaq var.

Uşaq hüquqlarının təmin edilməsi, onların poblemlərinin həlli ölkəmizdə bu sahədə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlət uşaq siyasəti artıq milli strategiya kimi formalaşmaqdadır. Cənab Prezident İlham Əliyev və ölkənin Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaq məsələlərinə diqqəti bu sahəyə qayğının daha da artmasına səbəb olmuşdur.

Respublikamızın güclü iqtisadi inkişafı sosial problemlərin həlli üçün etibarlı zəmin yaradır. Bu baxımdan son illərdə uşaqların sağlamlığının möhkəmləndirilməsi, onların müasir tələblər səviyyəsində təhsil alması, sağlam ailə mühitində yaşaması üçün mühüm sosial layihələr həyata keçirilir. 2009-cu ilin möhtərəm Prezidentimiz tərəfindən "Uşaq ili" elan edilməsi uşaq siyasəti istiqamətində əlavə tədbirlərin həyata keçirilməsinə geniş imkanlar açmış, dövlət orqanlarının və vətəndaş cəmiyyətinin diqqətini daha da artırmışdır. Uşaqların hərtərəfli inkişafında, intellektual və hüquqi biliklərə yiyələnməsində Ümumrespublika Uşaq Forumlarının xüsusi rolu var. Uşaqların öz hüquq və mənafeləri ilə bağlı qərarların qəbul olunmasında iştirakının təmin edilməsi ilə bağlı keçirilən (2009, 2011 və 2014-cü illər) bu forumlar Komitənin, Heydər Əliyev Fondu və UNİCEF-in Azərbaycan nümayəndəliyinin dəstəyi ilə reallaşmışdır.

Məktəbəqədər yaşlı uşaqların intellektual, fiziki və psixoloji inkişafının, onların şəxsiyyətinin hərtərəfli formalaşmasının və məktəbə hazırlanmasının təmin edilməsi, uşaqların yaradıcılıq mühitində böyüməsi və idmanla məşğul olması üçün zəruri şəraitin yaradılması prioritet istiqamətlər sırasındadır. Xüsusi qayğıya ehtiyacı olan uşaqlara, habelə aztəminatlı, çoxuşaqlı, qaçqın və məcburi köçkün ailələrindən olan uşaqlara dövlət qayğısının göstərilməsi də önəm daşıyır.






Uşaq siyasətinin reallaşmasında güclü qanunvericilik bazasının yaradılması çox vacibdir. Ölkəmiz öz müstəqilliyini elan etdikdən sonra BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına və bu Konvensiyanın 2 Əlavə Fakültativ Protokollarına qoşulmuşdur. Keçən dövr ərzində davamlı olaraq milli qanunvericilik və normativ-hüquqi aktlar təkmilləşdirilmiş, uşaq hüquqlarının müdafiəsi, normal formalaşması və uşaqların sağlam böyüməsinə yönəlmiş bir çox Dövlət Proqramları, Tədbirlər Planları qəbul edilmişdir. Bu proqramlar uşaqların hüquq və maraqlarının müdafiəsi, vahid dövlət uşaq siyasətinin formalaşdırılması, bu siyasətin tənzimlənməsi, həyata keçirilməsinin təmin edilməsi, uşaqların fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün lazımi həyat səviyyəsinin təmin olunması sahəsində milli konsepsiyanı inkişaf etdirməyə yönəlmişdir.

Qeyd etmək lazımdır ki, uşaq hüquqları sahəsində qanunvericilik bazası ildən-ilə daha da gücləndirilir. Belə ki, "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair", "İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üzrə" Proqramlar qəbul edilmişdir. "Diri

doğulmanın beynəlxalq meyarları"nın tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı qüvvəyə minmişdir. Uşaqların sağlamlıq hüququnun təmin edilməsi sahəsində "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın icrası ilə bağlı müvafiq tədbirlər görülmüşdür.

Uşaq məsələləri ilə əlaqədar dövlət qurumları arasında koordinasiya və nəzarət sistemi təkmilləşdirilməsi çox vacibdir. 2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası" təsdiq edilmişdir. Dövlət müəssisələrində uşaqların qidalanma, nəzarət, təhlükəsizlik, zorakılığa məruz qalma və digər məsələlərlə bağlı monitorinqi aparılımış, nəticələr araşdırılmışdır. Komitənin regionlarda fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzlərində həssas təbəqədən olan uşaqlar və onların ailələri üçün "açıq qapı" məsləhətləşmələri təşkil edilmişdir. Erkən nikah hallarının qarşısının alınması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi və aparılan maarifləndirmə tədbirləri belə nikahların azalmasına səbəb olmuşdur. Lakin bəzi rayonlarda, hələ də erkən nikahların sayı azalmır.

Qeyd etmək yerinə düşər ki, sağlam ailə mühiti uşaqların inkişafına təsir göstərir. Məsələ yalnız ali təhsildə, yaxşı işlə təmin olumaqdan, övladına ailə qurmaqda kömək etməkdən ibarət deyil. Əgər valideyn övladları ilə mütəmadi ünsiyyət qurmursa, onların həyatına, xüsusən də, keçid yaş dövründə etinasız yanaşırsa, əlbəttə, həmin uşaqlar bir sıra sosial-psixoloji problemlərlə üzləşəcəklər. Bir çox hallarda məişət zəminində baş verən zorakılıq zamanı uşaqlar həm zorakılığın şahidi, həm də zorakılığın qurbanı olurlar. Həmin uşaqlar çox ciddi psixoloji zədələr alırlar ki, bunun da sonradan ağır fəsadları yaranır. Onların sosial-psixoloji reabilitasiya keçməsinə böyük ehtiyac vardır. Bütün bu və digər məsələlər nəzərə alınaraq, Azərbaycan Respublikasının İnzibati Xətalar və Cinayət məcəllələrinə dəyişikliklərin edilməsi haqqında qanun layihələri hazırlanmışdır. 2015-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Qanunlar qəbul edilmişdir.

Azərbyacan Hökuməti uşaq hüquqlarının müdafiəsi sahəsində gələcəkdə görüləcək tədbirləri artıq müəyyən edib. Bununla bağlı, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsasən, Uşaq Strategiyası hazırlanıb, təsdiq üçün təqdim olunmuşdur. Uşaq Məcəlləsi ilə bağlı müəyyən iş görülməkdədir.

Ölkənin iqtisadi inkişafı və siyasi nüfuzu onun beynəlxalq təşkilatlarla daha sıx əməkdaşlıq etməsinə gətirib çıxarmışdır. Azərbaycan dövləti aparıcı ölkələrdə keçirilən sessiyalarda, konfranslarda iştirak edərək yeni təcrübələrin öyrənilməsinə müsbət yanaşır. Bu tədbirlərdə Azərbaycan dövləti həmin təşkilatlara üzv olur, beynəlxalq sənədlərin qəbulu prosesində də fəal iştirak edir. Qeyd etmək lazımdır ki, ikitərəfli əməkdalıq çərçivəsində Azərbaycan dövləti Türkiyə, Litva, Fransa, Belorus, Mərakeş, Küveyt, Sloveniya, İordaniya kimi ölkələrlə memarandum imzalanmışdır. Həmçinin, Azərbaycanda fəaliyyət göstərən bir sıra beynəlxalq təşkilatlarla ailə, qadın və uşaq məsələləri ilə əlaqədar müxtəlif layihələr həyata keçirilmişdir.

Azərbaycan bir sıra təşkilatların yaxın partnyorudur və bu tərəfdaşlıq ölkədə qadın və uşaqların inkişafı ilə bağlı mühüm layihələrin həyata keçirilməsinə, təcrübə mübadilələrinin aparılmasına təkan verir. Aparılan təcrübə mübadiləsi, uşaq və qadın siyasətinin yerinə yetirilməsi istiqamətində Azərbaycan Respublikasının ekspertlərinin yetişməsində də xüsusi rol oynayır.Dövlətimizin kifayət qədər mütəxəsisləri var ki, onlar ailə institutununmöhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi və digər istiqamətləridə beynəlxalq səviyyədə öz təcrübələrini bölüşə bilərlər. Cənab Prezident hər zaman öz çıxışlarında bilidirir ki, "bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır."2006-ci ildən hazırki dövrə qədər on beş mindən çox vətəndaş Komitəyə müraciət etmişdir və bu müraciətlərin demək olar ki, böyük hissəsi öz həllini tapmışdır. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, ölkəmizin bölgələrində vətəndaşların qəbulu keçirilmişdir. 2013- cü ilin yanvar

ayından başlayaraq Azərbaycan Respublikası Prezidenti Yanında Sosial İnnnovasiyalar və Vətəndaşlara Xidmət üzrə Dövlət Agentliyinin Dövlət Komitəsinə müraciətinə əsasən Agentliyin 1 saylı ASAN Xidmət mərkəzində yaradılan Uşaq guşəsinə Şüvəlan mərkəzindən ştatdan kənar işçilər cəlb edilmiş və guşə ləvazimatlarla təmin edilmişdir. Komitənin Veb saytı təkmilləşdirilmiş, "Facebook" səhifəsi yaradılmışdır. Açıq Hökumətin təşviqinə" və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icra edilməsinə dair "Şəffaflığın və informasiya azadlığının təmin edilməsi" mövzusunda təlim keçirilmişdir. Komitə tərəfindən şəhər və rayonlarda gender bərabərliyinin təmin edilməsi, insan alveri, narkomaniya, məişət zorakılığı, erkən nikah və selektiv abortlarla mübarizə, uşaqların təhsildən yayınması və digər sahələr üzrə məlumatlandırıcı, maarifləndirici tədbirlər həyata keçirilmişdir. Eyni zamanda, sosial xarakterli filmlər çəkilmiş, mərkəzi və regional televiziya kanallarında nümayiş olunmuşdur.

Cəmiyyətin inkişafı onun öz vətəndaşına göstərdiyi diqqətdən çox asılıdır. Respublika əhalisinin 50,2 faizini qadınlar, 26,7 faizini isə 18 yaşadək uşaqlar təşkil edir. Onların məşğulluq və təhsil səviyyəsinin yüksəldilməsi, ictimai fəallığının artırılması üçün dövlətimiz lazımi şərait yaradır. Hazırda bütün dünyada iqtisadi böhran yaşanır. Azərbaycan da bu iqtisadiyyatın ayrılmaz bir hissəsi olduğu üçün prosesdən kənarda qalmamışdır. Neftin qiymətinin aşağı düşməsi, manatın məzənnəsi devalvasiyaya uğramasına baxmayaraq, heç bir sosial layihə ixtisar edilməyib. Əksinə, cənab Prezidentin Sərəncamları ilə əmək pensiyalarının baza hissəsi, məcburi köçkünlərə yemək xərci üçün verilən aylıq müavinət, doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələri və şagirdləri üçün müəyyən edilmiş təqaüdlər, müxtəlif sahələrdən işçilərin əmək haqqları artırılmışdır. Ünvanlı dövlət sosial yardımına ehtiyacı olan aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində iş aparılmışdır. Aparılan köklü iqtisadi islahatlar dövlətimizin daha güclü olmasını, xalqımızın rifah içində, təhlükəsiz, firavan yaşamasını təmin edəcəkdir. Dövlət qurumu olaraq biz də yaranmış şəraitdən istifadə edərək öz missiyamızı layiqincə yerinə yetirməyə çalışacağıq.

**Hicran Hüseynova,**
***Azərbaycan Respublikasının***
***Ailə, Qadın və Uşaq Problemləri***
***üzrə Dövlət Komitəsinin sədri,***
***siyasi elmlər doktoru, professor***



# ŞƏRƏFLİ MİSSİYA



## *Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 10 illik yubileyi ölkəmizin həyatında əlamətdar hadisədir*

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılmasının 10-cu ildönümü bütün Azərbaycan ictimaiyyəti tərəfindən böyük sevinc və məmnunluqla qarşılanmışdır. Bu əlamətdar yubiley münasibətilə hörmətli Hicran xanım Hüseynova başda olmaqla Komitənin bütün əməkdaşlarını Gənclər və İdman Nazirliyinin kollektivi və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Hər bir ölkənin inkişaf göstəriciləri ailələrin rifahının yüksəldilməsi, qadınların sosial statusunun möhkəmləndirilməsi, uşaq hüquqlarının ardıcıl surətdə qorunması ilə sıx bağlıdır. Ümummilli Lider Heydər Əliyev tərəfindən bu sahədə əsası qoyulmuş dövlət strategiyası müasir şəraitdə uğurla inkişaf etdirilir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev ailə, qadın və uşaq problemlərinin həllinə böyük diqqət və qayğı ilə yanaşır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması və onun ardıcıl fəaliyyəti üçün bütün zəruri şəraitin yaradılması buna əyani sübutdur.

Ölkəmizdə əhalinin təxminən 51 faizini təşkil edən Azərbaycan qadınları özlərinin ictimai-siyasi fəallığı, vətənə sədaqəti, ailəyə bağlılığı və fədakarlığı sayəsində həm Şərq, həm də Qərb dünyası üçün unikal bir nümunədirlər. Zəngin təcrübəyə, həssas qəlbə, dərin biliyə malik qadınlarımız cəmiyyətin aparıcı

zərif varlıqlarıdır. Ötən illərdə ailənin möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində bir sıra hüquqi islahatlar aparılmışdır.

"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası qanunlarının qəbulu bu sahədə hüquqi bazanın təkmilləşdirilməsinə və müsbət nəticələrin qazanılmasına təkan vermişdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi qarşıda duran mühüm vəzifələrin həllində digər dövlət strukturları, qeyri-hökumət təşkilatları, xarici ölkələrin analoji qurumları, beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir. Böyük məmnunluq hissi ilə qeyd etməliyəm ki, Gənclər və İdman Nazirliyi bir sıra layihələrin reallaşdırılmasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə səmərəli birgə fəaliyyət göstərir. Ötən müddət ərzində Gənclər və İdman Nazirliyi tərəfindən Dövlət Komitəsinin iştirakı ilə bir sıra rayon və şəhərlərimizdə "Sağlam ailə cəmiyyətin təməlidir" və "İnsan alveri və zorakılıqla mübarizə hər birimizin işidir" mövzusunda təşviqat kampaniyaları, "Erkən nikahların qarşısının alınması məqsədilə maarifləndirmə işinin aparılması" mövzusunda təlim kursları, seminarlar və digər tədbirlər keçirilmişdir.

Əlbəttə, sadalananlar iki qurum arasında geniş əməkdaşlığın kiçik bir hissəsini təşkil edir. Bu gün daha da genişlənən birgə fəaliyyətimiz qarşıda duran aktual vəzifələrin səmərəli həllinə yönəlmişdir. Bu ardıcıl fəaliyyət bir sıra uğurlu nəticələr əldə etməyə imkan vermişdir.

Sevindirici haldır ki, ildən-ilə gənc xanımların ictimai həyatda iştirakı artmaqdadır. Onlarla gənclərin qeyri-hökumət təşkilatlarına gənc qızlarımız rəhbərlik edir.

Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu 2012-2015-ci illərdə qadın hüquqları ilə bağlı 61 layihəni maliyyələşdirmişdir. Fond tərəfindən maliyyələşdirilmiş 1547 fərdi layihədən 681-i 29 yaşınadək gənc qadınlar tərəfindən təqdim olunmuşdur (bu layihələrinin ümumi sayının 44 faizini təşkil edir).

Bədən tərbiyəsi və idmanın inkişafı üzrə dövlət siyasətinin məqsədlərindən birini qadınlar arasında bədən tərbiyəsi və idmanla məşğul olan şəxslərin sayının artırılması təşkil edir. İdman qadınlarda özünəinam hisslərini yüksəldir, dünyagörüşünün inkişafına müsbət təsir edir, onların və övladlarının idmanla məşğul olması onlar üçün yeni imkanlar açır, sosial əlaqələrini genişləndirir, maariflənməsinə sövq edir.

Hazırda ölkəmizdə bədən tərbiyəsi və idmanla məşğul olan qız və qadınların sayı 700.000 nəfərə çatır. Bu göstərici Azərbaycanda bədən tərbiyəsi və idmanla məşğul olanların ümumi sayının 40,58 faizini təşkil edir.

Qızların və gənc qadınların elmə həvəsləndirilməsi məqsədilə dövlət tərəfindən müvafiq tədbirlər görülür.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2010-2014-cü illərdə keçirdiyi müsabiqələrdə qalib gəlmiş layihələrin rəhbərlərinin və icraçılarının 43 faizini məhz qadınlar təşkil edir.

Gənclər və İdman Nazirliyi tərəfindən 2013-cü ildən etibarən "İstedadların hazırlığı laboratoriyası" layihəsi olimpiada formatında həyata keçirilir. Bugünə qədər olimpiadanın müxtəlif mərhələlərində 5 minə yaxın məktəbli iştirak etmişdir. İştirakçıların və qaliblərin üçdə birini qızlar təşkil etmişdir.

Başa çatmış “Azərbaycan gəncliyi 2005-2009-cu illərdə” və “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramlarında gənclərin, o cümlədən gənc qızların sağlamlığının qorunması, onların intellektual inkişafı, ictimai həyatda iştirakları və gənclər siyasətinin digər istiqamətləri üzrə dəstəklənməsi, eyni zamanda erkən nigahlarla mübarizə əks olunmuşdur. Yeni hazırlanmış “Azərbaycan gəncliyi 2016-2020-ci illərdə” Dövlət Proqramının layihəsində bu işlərin davam etdirilməsi ilə yanaşı, gender bərabərliyi haqqında və zorakılıq hallarının qarşısının alınması məsələləri də nəzərdə tutulmuşdur.

Uşaqların, ailələrin sağlam, xoşbəxt həyatı, ailələrin səadəti uğrunda çalışmaq ən müqəddəs vəzifədir. 10 ildir ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bu şərəfli missiyanı layiqincə həyata keçirir, Azərbaycanda müasir ailə institutunun daha da təkmilləşməsinə, qadınların sosial statusunun yüksəlməsinə, uşaq hüquqlarının tam həcmdə reallaşdırılmasına böyük töhfə verir. Bu sahədə Komitəyə yeni-yeni uğurlar arzulayır və gələcəkdə səmərəli birgə fəaliyyətimizin daha da genişlənəcəyinə inanıram.

**Azad Rəhimov**

***Azərbaycan Respublikasının***

***Gənclər və İdman Naziri***

# Ailə xalqın mədəni inkişafının meyarıdır



Azərbaycan xalqı tarixən ailə dəyərlərinin qorunmasına və saflığına xüsusi önəm vermişdir.

Çünki "kiçik dövlət" hesab olunan ailə xalqı formalaşdırır, ona dəyərlər qazandırır, eyni zamanda nəsillər arasında varisliyi təmin edir. Ailə həm də mədəni münasibətlərin ilk olaraq təşəkkül tapdığı ictimai sistem, mədəniyyətin əzəli və ən mühüm sosial institutudur. Bu baxımdan ailə hər zaman xalqın mədəni inkişafının bir meyarı olmuşdur.

Xalqımızın malik olduğu mənəvi-mədəni dəyərlər sistemində ailə, eləcə də qadın, ana müqəddəs bir yerə sahibdir. Türk xalqlarının mənəviyyat abidəsi sayılan "Kitabi-Dədə Qorqud" dastanı, eləcə də digər folklor nümunələrimizdə qadın-ana uca tutulmuş, onun ailədə və cəmiyyətdə rolu dönə-dönə vurğulanmışdır. Bu, Azərbaycan ədiblərinin yaradıcılığında da öz əksini tapmış, əsrlər boyu davam edərək bu günümüzə gəlib çatmışdır. Tarixin çətin sınaqlarından keçən xalqımız müxtəlif təsir və təzyiqlərə məruz qalsa da, zəngin mənəvi mirası – ailə dəyərlərini qoruyub yaşatmışdır.

Bu gün Azərbaycan Respublikasında milli-mənəvi zənginliyin, xalq irsinin digər mühüm elementləri kimi, ailə dəyərlərinin qorunub inkişaf etdirilməsi də daim dövlətin diqqət mərkəzindədir. Müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin milli ideya səviyyəsinə yüksəltdiyi azərbaycançılıq məfkurəsi xalqımızın min illərin tarix süzgəcindən süzülüb gələn mənəvi dəyərlərinin, o cümlədən ailə dəyərlərinin üzərində bərqərar olmuşdur. Ümummilli liderin fərmanı ilə 1998-ci ildə Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması, Azərbaycanda qadınların rolunun artırılması, dövlət qadın siyasətinin həyata keçirilməsi ilə bağlı sərəncamların imzalanması bu dəyərlərə, ailə institutuna verilən önəmin göstəricisi idi. Ulu öndər Azərbaycan uşaqlarını hər zaman savadlı və bilikli görmək arzusunda idi. O deyirdi: "Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır".

Azərbaycan ailəsinin, onun gələcəyi olan uşaqların himayəsinə, dəstəklənməsinə yönəlmiş siyasət Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Ölkə başçısının 6 fevral 2006-cı il tarixli

fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması bu siyasətin daha dolğun həyata keçirilməsinə, effektiv layihələrin reallaşmasına zəmin oldu.

Bu gün ailə, qadın və uşaqlar dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu siyasətin mühüm cəhətlərindən birini təhsil, o cümlədən bədii təhsil təşkil edir. Ölkəmizdə bu sahənin inkişaf etdirilməsi, musiqi, incəsənət və rəssamlıq məktəbləri şəbəkəsinin genişləndirilməsi dövlət tərəfindən hərtərəfli savadlı, bilikli gənc nəslin yetişdirilməsinə, estetik tərbiyəsinə diqqət və qayğının nəticəsidir.

Ailə dəyərlərinin əhəmiyyətini yüksək qiymətləndirən Prezident İlham Əliyev demişdir: “Ailə dəyərləri xalqımız üçün həmişə çox doğma, çox əziz olub və deyə bilərəm ki, ailə dəyərləri, əslində bizim milli dəyərlərimizdir. Azərbaycan dünya birliyinə inteqrasiya edir. Əlbəttə ki, dünyada gedən qloballaşma prosesi bizdən də yan keçmir. Biz ümumbəşəri dəyərləri bölüşürük, ancaq bizim üçün əsas dəyərlər Azərbaycanın milli dəyərləridir. Bu baxımdan əgər tarixə də nəzər salsaq görərik ki, xalqımızın yaşaması üçün, öz mənliyini, qürurunu qoruması üçün ailə dəyərləri, milli dəyərlər əvəzolunmaz rol oynayıb. Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksəkdə olmalıdır”.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması da bu siyasətinin həyata keçirilməsində yeni mərhələnin əsasını qoymuşdur. Tarixən formalaşmış ailə münasibətlərini qoruyub saxlamaq və dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə istinad etməklə ailə institutunu daha da inkişaf etdirmək bu sahədə reallaşdırılan siyasətin əsasını təşkil edir. Buna görə də ailə dəyərlərinin təbliği, sağlam ailə mühitinin formalaşdırılması milli-mənəvi və dünyəvi dəyərlərin birləşməsi prosesində həyata keçirilməlidir.

Məlumdur ki, respublikamızda mədəniyyət müəssisələrində çalışanların əksəriyyəti qadınlardır. Bu isə o deməkdir ki, gənc nəslin estetik tərbiyəsində, yaradıcı təfəkkürünün formalaşmasında onların üzərinə daha böyük və məsul missiya düşür. Bu eyni zamanda ölkəmizdə mədəniyyət siyasətinin və dövlət qadın siyasətinin bir çox məqamlarda qovuşmasını, qarşılıqlı əlaqəsini göstərir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi də fəaliyyət göstərdiyi 10 il müddətində Mədəniyyət və Turizm Nazirliyi ilə sıx əməkdaşlıq etmiş, iki dövlət qurumunun iştirakı ilə müxtəlif layihələr həyata keçirilmişdir. Gerçəkləşdirilən layihələr Azərbaycan milli mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin və turizm potensialının tanıdılmasına və milli mədəni irsimizin, dəyər və sərvətlərimizin qorunub saxlanılmasına xidmət edir. Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində tədrisin səviyyəsinin yüksəldilməsi, gənc istedadların üzə çıxarılması, onların peşəkar inkişafının istiqamətləndirilməsi üçün Mədəniyyət və Turizm Nazirliyi tərəfindən mütəmadi olaraq baxış-müsabiqələr, festivallar, sərgilər təşkil olunur. Bu addımlar ölkəmizdə təhsil keyfiyyətinin yüksəldilməsinə, uşaqlarda estetik zövqün formalaşdırılmasına təkan verir.

Nazirliyin tabeliyində olan, paytaxtda və bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində, eləcə də digər qurumlarda mütəmadi olaraq ailə dəyərlərinin qorunmasına, uşaqların yaradıcılığının

stimullaşdırılmasına, maarifləndirilməsinə yönələn müxtəlif tədbirlər keçirilir. Nazirliyin və Dövlət Komitəsinin dəstəyi, Dövlət Rəssamlıq Akademiyasının təşkilatçılığı ilə 2013-cü ildə gerçəkləşən Daun sindromlu uşaqların rəsm və əl işlərindən ibarət "Biz günəşin şəfəqləriyik" adlı sərgi bu sahədə yaddaqalan layihələrdən olmuşdur.

Heydər Əliyev Fondu və BMT-nin Əhali Fondunun dəstəyi, Dövlət Komitəsi və Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə reallaşan "Azərbaycan ailəsi" film festivalı isə artıq xoş ənənə halını almışdır. 2009-cu ildən keçirilən festivallarda ümumilikdə 170-dək film təqdim edilmişdir. Həvəskar və professional rejissorlar, televiziya əməkdaşları və tələbələrin qatıldığı festival böyük maraqla qarşılanır. Layihənin əsas məqsədi dövlət ailə siyasətinin həyata keçirilməsi, milli-mənəvi dəyərlərin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, gənclərin yaşlılara hörmət ruhunda tərbiyə olunması, ailədə sülh və dözümlülük mədəniyyətinin təbliğidir. 2014-cü ildən etibarən festival çərçivəsində "Həyatdan şəklə" adlı fotomüsabiqə də keçirilir.

Məlum olduğu kimi, 15 may dünyada Beynəlxalq Ailə Günü kimi qeyd olunur. BMT Baş Assambleyası tərəfindən 1993-cü ildə belə bir günün təsis olunmasında məqsəd insanların diqqətini cəmiyyətin təməli olan ailəyə yönəltməkdir. Bir neçə ildir ki, əlamətdar gün ölkəmizdə də qeyd edilir. Respublikamızın əksər şəhər və rayonlarını təmsil edən, müxtəlif nominasiyalar üzrə keçirilən müsabiqələrdə ailələrin əl işlərindən ibarət sərgilərə baxış olur, milli mətbəx nümunələri nümayiş etdirilir. "Ailə bayramı" layihəsi milli ailə ənənələrinin yaşadılması ilə yanaşı, bölgələrimizdə yaşayan ailələrin bir-biri ilə tanışlığına töhfədir.

Artıq bir neçə ildir ki, Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə keçirilən "Gözəllik nuru" adlı layihə xanımlara bayram töhfəsidir. Layihənin əsas konsepsiyası teatr və musiqi sənəti ilə üzvi şəkildə birləşən təsviri incəsənətdir. "Gözəllik nuru"nun bütün təqdimatlarında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəhbərliyi də fəal şəkildə iştirak edir.

Azərbaycan qadınları ictimai-siyasi proseslərdə həmişə fəal olmuşlar. Onların sıralarından görkəmli dövlət, elm, mədəniyyət xadimləri çıxaraq ölkəmizin inkişafında mühüm rol oynamışlar. Respublikamız müstəqillik qazandıqdan sonra qadınların cəmiyyətdə rolu daha da yüksəlmiş və fəaliyyətləri genişlənmişdir. Hazırda qadınlarımız ölkəmizin hüdudlarından kənarda, beynəlxalq qurumlarda da ölkəmizi ləyaqətlə təmsil edirlər. Heydər Əliyev Fondunun prezidenti, Mehriban xanım Əliyevaya YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri adının verilməsi dediklərimizə ən bariz nümunədir. Mehriban xanım Əliyevanın dəstəyi və təşəbbüsü ilə 2008-ci ildə Bakıda təşkil olunan "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forum Azərbaycan qadınlarının mədəniyyətlərarası dialoq prosesində fəal iştirakını dünyaya bir daha bəyan etdi.

Azərbaycan xanımları mədəniyyət və incəsənətin bir çox sahələrində, o cümlədən təsviri sənətdə mühüm uğurlar qazanırlar. Ölkəmizdə əl sənətinin ən gənc növlərindən olan müəllif kukla sənətinin

inkişafı isə bilavasitə xanım sənətkarlarımızın adı ilə bağlıdır. 2011-ci ildə təməli qoyulan və iki ildən bir nazirliyin dəstəyi ilə keçirilən "Fusion Doll" Bakı Beynəlxalq Kukla Biennalesi qadınların bu sahədə yaradıcılığının təqdim olunduğu uğurlu layihədir. 2015-ci ildən biennaledə uşaqlara da yer ayrılmış və gələcəyin sənət ustaları, "DA ART" təsviri incəsənət mərkəzinin uşaq bölməsinin şagirdləri biennale üçün hazırladıqları layihələrlə ölkəmizi təmsil etmişlər.

Bu gün Azərbaycanın mədəni zənginliyinin bir sıra nümunələri - muğam, aşıq, tar ifaçılığı, xalçaçılıq, Lahıc misgərlik sənətləri, kəlağayı sənəti, eləcə də xalqımızın mənəviyyat yaddaşı olan Novruz bayramı YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısında yer almışdır. Bu mədəni irsin əsrlərlə yaşadılmasında Azərbaycan xanımlarının böyük rolu olmuşdur. Bu sırada xalçaçılıq və kəlağayı sənətlərini xüsusi vurğulamaq istərdik. Çünki dünya mirasının bir parçasına çevrilən bu nümunələr eyni zamanda Azərbaycan qadınlarının yüksək sənət zövqünün, mənəvi zənginliyinin beynəlxalq aləmdə təbliği deməkdir.

Mədəniyyət və Turizm Nazirliyinin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və digər qurumlarla birgə həyata keçirdiyi layihələr gələcəyimiz olan uşaqların nurlu sabahına, milli ruhda tərbiyəsinə, ailələrin sosial-mədəni inkişafına xidmət edir. Bu gün cəmiyyətimiz inkişaf edir, meyarlar, tələblər dəyişir. Dövlət qurumları olaraq biz də bu inkişafın əsas meyllərini, mütərəqqi tendensiyaları fəaliyyətimizdə tətbiq edərək ümumi inkişafa töhfə verməliyik.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin keçdiyi 10 illik yola nəzər salanda qurumun uğurlu fəaliyyətinin şahidi oluruq. Bunun təməlində dövlətimizin diqqət və qayğısı, görülən işə məsuliyyət və bir də vətəndaş yanğısı dayanır. Fürsətdən istifadə edib komitənin rəhbərliyini və kollektivini əlamətdar yubiley münasibətilə təbrik edir və gələcək fəaliyyətlərinin yeni-yeni uğurlarla zəngin olmasını arzulayıram.

**Əbülfəs Qarayev**

***Azərbaycan Respublikasının***

***Mədəniyyət və Turizm Naziri***



# Ailə institutunun daha da möhkəmləndirilməsi üçün cəmiyyətdə din-ailə münasibətlərinin geniş şəkildə müzakirə edilməsi zəruridir

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yarandığı gündən  Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda formalaşdırdığı, hazırda  möhtərəm Prezidentimiz İlham Əliyevin uğurla davam etdirdiyi ailə siyasətinin həyata keçirilməsində müstəsna rol oynamış, Azərbaycan dövlətinə və xalqına layiqli və qüsursuz xidmət göstərir.

Dövlət Komitəsinin fəaliyyəti yalnız respublikamızla məhdudlaşmamış, müasir ailə institutunun problemləri ilə bağlı müxtəlif beynəlxalq və regional tədbirlər keçirmiş, ölkəmizi yüksək səviyyədə təmsil etmişdir. Buna görə də, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin dövlətin təməl dayağı sayılan ailə institutunun möhkəmlənməsində aktiv iştirakı, millətimizin gələcəyi olan uşaqlarla bağlı problemlərə həssas yanaşması, eləcə də bu istiqamətlərdə ardıcıl fəaliyyəti cəmiyyətimiz tərəfindən birmənalı olaraq müsbət dəyərləndirilir.

Qeyd etməliyəm ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sıx əməkdaşlıq etdiyi dövlət qurumlarından biri də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsidir. Təsadüfi deyil ki, 28 noyabr 2014-cü ildə "Milli-mənəvi ailə dəyərləri: ənənə və müasirlik" mövzusunda keçirilmiş konfransda iki Komitə arasında "2015-1016–cı illər üçün  birgə işin təşkilinə dair tədbirlər Planı" imzalanıb. Birgə fəaliyyət göstərməkdə əsas məqsəd Azərbaycanda milli-mənəvi dəyərləri qorumaq, onlardan irəli gələn ənənələrin yaşatmaq, islami dəyərləri qoruyub saxlamaq, müəyyən dairələrin din pərdəsi altında öz siyasi məqsədlərini reallaşdırmaq cəhdlərinin qarşısını almaqdır. Çünki sosial-iqtisadi sahədə uğurlara imza atan Azərbaycanın beynəlxalq aləmdə nüfuzu möhkəmlənməkdədir. Sosial-iqtisadi həyatda dəyişikliklər mənəvi-psixoloji mühitə də öz təsirini göstərir. Cəmiyyətdə ailə və gender məsələlərinə diqqət artır. Azərbaycan əhalisinin 51 faizini təşkil edən qadınlar cəmiyyətdə böyük təsir qüvvəsinə malikdir. Məhz buna görə ailə institutunun cəmiyyətdəki mövqeyinin möhkəmləndirilməsi bütün dünyada aktual problemdir. Azərbaycan ailəsi həmişə uzun ömürlülüyü və möhkəmliliyi ilə seçilib. Bu, əsasən milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunub saxlanılmasından, müasir dövrə uyğunlaşdırılmasından irəli gəlir. Azərbaycan ailəsi dünyada ən yaxşı ailə modellərindən biri hesab olunur. Bu baxımdan, ailə institutunun daha da möhkəmləndirilməsi üçün cəmiyyətdə din-ailə münasibətlərinin geniş şəkildə müzakirə edilməsi zəruridir.

Qeyd edilən Tədbirlər Planına əsasən, 2015-ci il fevralın 6-da “Müasir dövrün çağırışları: Ailə institutu və dini dəyərlərin vəhdəti”  adlı  konfrans keçirilib.  Konfransın əsas məqsədi cəmiyyətin diqqətini bu məsələyə yönəltmək olub. Belə ki, vətəndaşlarımıza izah edilməlidir ki, ailə qurmaq hüquqi məsələdir və dövlətin müəyyən etdiyi qanunlarla tənzimlənməlidir. Bu məsələlərdə hər hansı dini ehkamı ortaya qoyaraq

bundan istifadə etmək doğru deyil. Lakin nəzərə almaq lazımdır ki, cəmiyyətdə qanunlarla yanaşı, milli-mənəvi dəyərlərimiz də mühüm rol oynayır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 2015-ci ildə birgə fəaliyyəti bölgələri də əhatə edib. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın icrasının təmin edilməsi, cəmiyyət üzvləri arasında Azərbaycan ailəsinə xas dəyərlərin, cəmiyyətdə və ailədə tolerantlıq mədəniyyətinin təbliği məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 2015-ci ilin iyul ayından etibarən "Bizim gücümüz birliyimizdədir" adlı genişmiqyaslı maarifləndirmə layihəsi həyata keçirilir. Layihə çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə sentyabrın 21-i Xaçmaz şəhərində keçirilən Beynəlxalq Sülh Gününə həsr olunmuş konfransda Xaçmaz, Quba, Qusar, İsmayıllı, Qəbələ, Balakən, Zaqatala rayonlarından gələn milli azlıqların, etnik qrupların üzvləri, eləcə də digər millətləri təmsil edən ailələr iştirak ediblər. Bu, bir daha onu sübut edir ki, ölkəmizdə yaşayan bütün millətlərin mədəniyyətlərinin çiçəklənməsi, dini konfessiyaların hər bir nümayəndəsinin öz əqidəsinə uyğun yaşaması üçün bütün zəruri işlər görülür və bu işlər əzmlə davam etdiriləcəkdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ötən dövr ərzində dərin tarixi köklərə malik ailə dəyərlərimizin qorunub saxlanılmasından, İslamda ailə mövzusundan, uşaqların erkən yaşlardan milli-mənəvi ruhda tərbiyə edilməsinin vacibliyindən bəhs edən tədbirlər həyata keçirib. DQİDK "Cəmiyyətimizin erkən nikahlardan və radikal təsirlərdən qorunması", "Erkən nikah və onun fəsadları", "Gənc nəslin tərbiyəsində milli - mənəvi dəyərlərimizin əhəmiyyəti" və bu kimi mövzularda respublikamızın bütün bölgələrini əhatə edən layihələr həyata keçirməklə erkən nikahların doğurduğu fəsadlar, uşaqların təhsildən yayınmalarının qarşısının alınması yolları, xalqın özünə, öz tarixi və dini köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığına aid məsələlər ətrafında geniş müzakirələr təşkil edib.

Dövlət Komitəsi tərəfindən "İslamda uşaq hüququna verilən dəyər", "İslamda ailə dəyərləri", "Uşaq hüquqları aylığı" çərçivəsində reallaşan layihələrdə isə dinimizin insanların qəlbində uşaqlara sevgi, rəğbət və mərhəmət hisləri aşıladığı ictimaiyyətin diqqətinə çatdırılıb.

Biz qeyd olunan bütün məsələlərdə, xüsusilə zəngin milli-mənəvi irsimizin, Azərbaycan xalqına xas ailə dəyərlərinin təbliği və təşviqi sahəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşlığını, o cümlədən birgə tədbirlər planı hazırlayaraq icra etməsini yüksək qiymətləndiririk. İnanırıq ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə imzaladığımız tədbirlər planına əsasən, bu istiqamətdə işlər 2016-cı ildə də uğurla davam etdiriləcəkdir.

Fürsətdən istifadə edərək, bu əlamətdar gün, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaranmasının 10 illiyi münasibəti ilə Dövlət Komitəsinin bütün kollektivini bir daha təbrik edir, cansağlığı, uzun ömür, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə doğma Azərbaycanımızın inkişafı, xalqımızın rifahı və tərəqqisi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

**Mübariz Qurbanlı**
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,***
***Yeni Azərbaycan Partiyası İcra katibinin müavini***

# Azərbaycan Ağsaqqallar Şurası

**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, siyasi elmlər doktoru, professor Hicran xanım Hüseynovaya**

**Hörmətli Hicran xanım!**

Sizi Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 10 illik yubileyi münasibətilə Azərbaycan Ağsaqqallar Şurasının üzvləri adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edir, Vətənimizin tərəqqisinə istiqamətlənmiş dəyərli fəaliyyətinizdə yeni-yeni uğurlar, cansağlığı, xoşbəxtlik və ailə səadəti arzulayıram.

Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı, hörmətli prezidentimiz cənab İlham Əliyevin 6 fevral 2006-cı il tarixli Fərmanı ilə yaradılan və Sizin başçılığınız altında fəaliyyətə başlayan Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi qarşısına qoyduğu məqsəd və vəzifələri 10 illik bir dövrdə gördüyü önəmli işlərlə, əməli fəaliyyətlə və məqsədlərinin ülviliyi ilə sübut etdi. Azərbaycanda ailə institutunun dəstəklənməsi və inkişafının təmin edilməsi, bu sahədə normativ-hüquqi və institusional bazanın təkmilləşdirilməsi, sağlam ana, sağlam uşaq, həmçinin gender prinsiplərinin həyata keçirilməsi, uşaqların hüquqlarının və qanuni mənafelərinin qorunması istiqamətində uğurlu fəaliyyətin aparılması, o cümlədən sosial yönümlü siyasətin həyata kçeirilməsi sahəsində bir çox digər dəyərli layihələr bilavasitə Sizin fədakar əməyiniz, səy və işgüzarlığınız nəticəsində reallaşmışdır. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin bu çətin, lakin şərəfli fəaliyyəti dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilmişdir. Respublika Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Komitə əməkdaşlarının bu yaxınlarda “Tərəqqi” medalı ilə təltif edilməsi buna bariz nümunədir. Biz əminik ki, ölkəmizin işıqlı gələcəyi naminə bundan sonra da var qüvvənizlə çalışacaq, potensial imkanlarınızı, bilik və bacarığınızı əsirgəməyəcəksiniz.

**Dərin hörmət və səmimiyyətlə,**

**Azərbaycan Ağsaqqallar Şurasının sədri, millət vəkili Fəttah Heydərov**

# YAP Qadınlar Şurası

**Əziz və hörmətli Hicran xanım!**

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılmasının 10 illik yubileyi münasibətilə Sizi və Komitənin bütün əməkdaşlarını səmimi qəlbdən təbrik edirəm!

Ulu Öndər, uzaqgörən siyasətçi Heydər Əliyevin 14 yanvar 1998-ci il tarixli Fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Sosial-iqtisadi inkişafda nəzərəçarpacaq uğurlar qazanaraq müstəqillik yolunda inamla addımlayan ölkəmizdə ailə və uşaq problemlərinin qadın problemləri ilə əlaqəli surətdə həlli zərurətinə Ölkə Rəhbərliyi biganə qalmamış və bu sahədə vahid idarəetmə orqanının təşkilini təmin etmişdir. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikasının 06 fevral 2006-cı il tarixli Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Komitə Azərbaycan Respublikasında gender problemlərinin həlli və sosialyönümlü siyasətin həyata keçirilməsi sahəsində səmərəli fəaliyyəti ilə fərqlənərək, qadın və uşaqların hüquqlarının, qanuni mənafelərinin qorunması, sosial müdafiəsi istiqamətində əməli tədbirlər gördü, qadınların işlə təmin olunması, məşğulluq strategiyası istiqamətində bir sıra layihələrlə çıxış etdi.

**Hörmətli Hicran xanım!**

Sizin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə rəhbərliyiniz dövründə insan hüquq və azadlıqlarının müdafiəsi, milli-mənəvi dəyərlərimizin qorunması, qadınların peşə hazırlığına və əlavə təhsilinə yönəldilmiş tədbirlərin həyata keçirilməsi, uşaqlara, eləcə də, sağlamlıq imkanları məhdud uşaqlara diqqət və qayğının artırılması, əhalinin, xüsusilə də gənclərin reproduktiv sağlamlıq və ailə planlaşdırılması sahəsində maarifləndirilməsi, ailə, qadın, uşaq siyasəti, məişət zorakılığı ilə mübarizə sahəsində mühüm beynəlxalq tədbirlərin həyata keçirilməsi və bu sahələrdə mövcud Dövlət Proqramlarının icrasının təmin edilməsi istiqamətində səmərəli fəaliyyətiniz təqdirəlayiqdir. Bunun nəticəsində əhəmiyyətli inkişaf diaqramına malik gərgin fəaliyyətiniz Dövlət Rəhbərimiz tərəfindən dəyərləndirilərək Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilmişsiniz.

**Çox hörmətli Hicran xanım!**

Komitənin yubileyi münasibətilə Sizə möhkəm səhhət, bütün işlərinizdə müvəffəqiyyət, dövlətçiliyimizin möhkəmlənməsi naminə yüksək fəallıq, nəsillərə örnək olan nəcib və xeyirxah əməllərinizdə sonsuz uğurlar, ömrünüzə fərəhli, sevincli günlər arzulayıram.

**Dərin hörmət və sayğılarla,**

**Nurlana Əliyeva**

**YAP İdarə Heyətinin üzvü,**

**YAP Qadınlar Şurasının sədri,**

**filologiya elmləri doktoru, professor**

## Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi

**Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri xanım Hicran Hüseynovaya**

**Hörmətli Hicran xanım!**

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılmasının 10 illiyi münasibətilə Sizə və rəhbərlik etdiyiniz kollektivəsəmimi təbriklərimi çatdırır, gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Azərbaycanda dövlət ailə siyasətinin formalaşdırılması və uğurla həyata keçirilməsi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Ulu Öndər Heydər ƏliyevAzərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ailə institunun inkişafı və cəmiyyətdə gender bərabərliyinin təmin olunması məsələlərinə xüsusi diqqətlə yanaşmışdır. Bu məqsədyönlü siyasətin davamı olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması bu sahəyə ən yüksək səviyyədə göstərilən diqqətin daha bir təzahürüdür.

Bu gün ölkəmizdə ailə və gender məsələləri sosial sahədə dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Ailələrin sosial müdafiəsinin gücləndirilməsi, gənc nəslin vətənpərvər və sağlam ruhda tərbiyə olunması, qadınların ölkəmizin inkişafında və ictimai-siyasi həyatda yaxından iştirakının təmin olunması istiqamətində əhəmiyyətli tədbirlər görülür. Bu konteksdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi öz fəaliyyəti ilə ölkəmizdə ailə siyasətinin uğurla həyata keçirilməsinə, uşaqların və qadınların hüquqlarının qorunmasına, ailədaxili münasibətlərdə milli-ənənəvi dəyərlərin təbliği işinə əhəmiyyətli töhfələr verir.

Gender bərabərliyinin təmin olunması, məişət zorakılığının qarşısının alınması, qadınların cəmiyyətdə rolunun gücləndirilməsi istiqamətində həyata keçirdiyiniz maarifləndirmə tədbirləri layihələr xüsusilə təqdirəlayiqdir. Inanırıq ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın tərəqqisi prosesində iştirakınızı bundan sonra da uğurla davam etdirəcək və üzərinizə düşən vəzifələrin öhdəsindən layiqincə gələcəksiniz.

Əlamətdar yubiley münasibətilə Sizi bir daha təbrik edir, uğurlar və yeni nailiyyətlər arzulayıram.

**Hörmətə,**

**Azərbaycan Respublikası**

**Konstitusiya Məhkəməsinin Sədri,**

**Hüquqi elmlər doktoru  Fərhad Abdullayev**

**6 fevral 2016-cı il, Bakı şəhəri**



**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri xanım Hicran Hüseynovaya**

**Çox hörmətli Hicran xanım!**

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılmasının 10 illiyi münasibətilə Sizi təbrik edir, fəaliyyətinizdə müvəffəqiyyətlər və yeni nailiyyətlər arzulayıram.

Azərbaycanda ailə və gender məsələləri sosial sahədə dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir, ailələrin sosial müdafiəsinin gücləndirilməsi, qadınların və uşaqların hüquqlarının qorunması istiqamətində əhəmiyyətli tədbirlər və layihələr həyata keçirilir.

Ölkəmizdə ailəyə və onun problemlərinə dövlət səviyyəsində qayğı göstərilməsi xalqımızın Ümummilli Lideri  Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Ulu Öndər Heydər Əliyev ailə institutunun inkişafı, cəmiyyətdə qadınların rolunun və iştirakının artırılması məsələlərinə daim böyük diqqətlə yanaşmış, bu sahədə mövcud olan problemlərin həlli istiqamətində əhəmiyyətli tədbirlər görmüşdür.

Bu siyasi kursun davamı olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması bu sahənin gələcək inkişafı baxımından böyük əhəmiyyətə malik olmuşdur. Fəaliyyət göstərdiyi illər ərzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Sizin rəhbərliyinizlə ölkəmizdə ailə və qadın siyasətinin uğurla həyata keçirilməsinə, ailə institutunun inkişafı və qadınların cəmiyyətdə rolunun artırılması istiqamətində görülən işlərə mühüm töhfələr vermişdir.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın daim diqqət mərkəzində olan xalqımızın milli-mənəvi dəyərlərinin qorunması ölkəmizin sosial və mədəni inkişafına əhəmiyyətli təsir göstərir. Bu mənada ailədaxili münasibətlərdə milli-mənəvi dəyərlərin təbliği, gənc nəslin düzgün tərbiyə olunması istiqamətində Komitənin həyata keçirdiyi maarifləndirmə tədbirləri əhəmiyyət daşıyır və cəmiyyətdə müsbət qarşılanır.

Əlamətdar yubiley münasibətilə Sizi bir daha təbrik edir və ümidvar olduğumu bildirirəm ki, üzərinizə düşən məsuliyyətli vəzifələri bundan sonra da uğurla həyata keçirəcəksiniz.

**Hörmətlə,**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin**

**sədr müavini Sona Salmanova**

# Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)

**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran xanım Hüseynovaya**

**Hörmətli Hicran xanım!**

Sizi Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılmasının və həmin komitənin sədri vəzifəsinə təyin olunmağınızın 10 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, ailə səadəti, sevinc dolu günlər, dövlətimizin daha da inkişafı, xalqımızın tərəqqisi naminə məsul fəaliyyətinizdə böyük nailiyyətlər arzulayıram.

Ümummilli liderimiz Heydər Əliyev daim vurğulayırdı ki, Azərbaycan qadını ailənin, cəmiyyətin və dövlətin inkişafında mühüm rola malikdir. Ictimai-siyasi proseslərdə qadınların rolunun artırılması  Ulu öndərin siyasi fəaliyyətinin mühüm istiqamətlərindən biri olmuşdur. Uşaqların hüquqları və problemlərinin həlli də hər zaman onun diqqət mərkəzində olmuş, bu dahi şəxsiyyət tərəfindən uşaqlara böyük qayğı göstərilmişdir.

Ulu öndərin siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 06 fevral 2006-cı il tarixli Fərmanına əsasən Ailə, Qadın və Uşaq Problemləri üzrə

Dövlət Komitəsinin yaradılması və bu quruma geniş səlahiyyətlət verilməsi ailə, qadın və uşaq hüquqlarının həyata keçirilməsi, onların problemlərinin həlli istiqamətində geniş imkanlar yaradır.

Adı çəkilən komitənin sədri kimi, Azərbaycan ailəsinin, qadınlarının inkişafı və rifahına, cəmiyyətdə fəal iştirakının təmin edilməsinə, uşaqlara dövlət qayğısının daha da yüksəldilməsinə, onların problemlərinin həllinə səylər göstərməyiniz təqdirəlayiqdir.

Azərbaycan qadını tarixin bütün mərhələlərində olduğu kimi, bu gün də cəmiyyətdə gedən dinamik proseslərdə fəal iştirak edir, bilik və bacarığını ölkəmizin prioritet məsələlərinin həllinə yönəldir, ailə ocağının qoruyucusu kimi övladlarını tərbiyə edir, onların əsl vətənpərvər ruhunda yetişməsinə ürəyinin hərarətini bəxş edir. Ölkəmizdə təşkil olunmuş qadın qurultayları, orada qadınların fəal iştirakı da bunun bariz nümunəsidir.

Ombudsman təsisatı ilə rəhbərlik etdiyiniz komitə arasında qadın və uşaq hüquqları sahəsində səmərəli əməkdaşlıq əlaqələri qurulmuş və bu gün də uğurla davam etdirilir.

Sizi bir daha ürəkdən təbrik edir, fəaliyyətinizdə daha böyük uğurlar arzulayıram, insan hüquqları, o cümlədən qadın və uşaq hüquqları sahəsində əməkdaşlığımızın gələcəkdə də səmərəli olacağına inanıram.

**Hörmətlə,**

**Azərbaycan Respublikasının**

**İnsan Hüquqları üzrə Müvəkkili**

**(Ombudsman) Elmira Süleymanova**

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran xanım Hüseynovaya**

**Hörmətli Hicran xanım!**

Sizi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin fəaliyyətinin 10 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin inkişafı naminə məsul və səmərəli fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar diləyirəm.

Ölkədə qadınların kişilərlə hüquq bərabərliyi, xüsusən də onların dövlət idarəetməsində və qərar qəbuletməsində aktivliyinin təmin edilməsi, milli-mənəvi dəyərlərin gənc nəslə ötürülməsi və geniş təbliğ edilməsi, uşaq hüquqlarının müdafiəsi, onların sağlam mühitdə böyüməsi və təhsil alması məqsədilə zəruri tədbirlər görülmüşdür.

Fəaliyyətinizin 10 illiyi münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, uzun ömür və möhkəm cansağlığı arzulayıram.

**Hörmətlə,**

**Azərbaycan Respublikasının**

**Təhsil naziri Mikayıl Cabbarov**

AZƏRBAYCAN RESPUBLİKASI
**GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ**

**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran xanım Hüseynovaya**

**Hörmətli Hicran xanım!**

Sizi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin kollektivini 10 illik yubileyiniz münasibətilə Gənclər və İdman Nazirliyinin kollektivi və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edir, hər birinizə ən xoş arzularımı çatdırıram.

Hər bir ölkənin demoqrafik inkişaf göstəriciləri qadınların və uşaqların sosial vəziyyətinin yaxşılaşdırılması, hüquqlarının qorunması ilə sıx bağlıdır. Ailə kimi müqəddəs dəyərlərin cəmiyyətimizdə daha da möhkəmləndirilməsi, onun sağlam inkişafı naminə Komitə tərəfindən mühüm tədbirlər həyata keçirilir. Fərəhli haldır ki, Komitənin nəzdində fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzi yüzlərlə sağlam ailənin formalaşmasında iştirak edir.

Ölkəmizdə əhalinin təxminən 51 faizini təşkil edən Azərbaycan qadınları özlərinin ictimai-siyası fəallığı, vətənə sədaqəti, ailəyə bağlılığı və fədakarlığı sayəsində həm Şərq, həm də Qərb dünyası üçün unikal bir nümunədirlər. Zəngin təcrübəyə , həssas qəlbə, dərin biliyə malik qadınlarımız cəmiyyətin aparıcı zərif varlıqlarıdır.

Ötən illərdə ailənin möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində bir sıra hüquqi islahatlar aparılmışdır. "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası qanunlarının qəbulu bu sahədə huquqi bazanın təkmilləşdirilməsinə və müsbət nəticələrin qazanılmasına səbəb olmuşdur.

Bu gün Azərbaycan ailəsi dünya ölkələri sırasında seçilir və öz uğurlu modelini dünya səviyyəsində tanıtdırır, onlarla öz zəngin təcrübəsini bölüşür. Bu təcrübənin əsasını ilk növbədə çoxmillətli ölkəmizdə mövcud olan ictimai-siyasi sabitlik , tolerantlıq kimi amillər təşkil edir. Respublikamızda yoxsulluq səviyyəsi ilbəil azalmaqdadır. Əlbəttə bu, ailə, qadın və uşaq problemlərinin də həllində öz müsbət təsirini göstərir.

Uşaqların , ailələrin sağlam, xoşbəxt həyatı uğrunda çalışmaq ən müqəddəs vəzifədir. 10 ildir ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bu şərəfli vəzifəni layiqincə, ana məhəbbəti və qayğısı ilə həyata keçirir. Azərbaycanda müasir ailə institunun daha təkmilləşdirilməsində əməyiniz böyükdür.

**Hörmətli Hicran xanım!**

Bir daha Sizi və rəhbərlik etdiyiniz kollektivin hər bir üzvünü 10 illik yubileyiniz münasibəti ilə təbrik edir, xalqımızın xoşbəxt gələcəyi naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

**Hörmətlə,**

**Azərbaycan Respublikasının**

**Gənclər və İdman naziri Azad Rəhimov**

# Azərbaycan Respublikasının Vergilər Nazirliyi

**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran xanım Hüseynovaya**

**Hörmətli Hicran xanım!**

Sizi 6 fevral-Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılmasının 10 illiyi münasibətilə təbrik edirəm.

Sosial siyasətin prioritet istiqamətlərini təşkil edən ailə, qadın və uşaq problemlərinin həlli üçün etibarlı zəminin yaradılması Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə

bağlıdır. Sonrakı dövrlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilən bu siyasət nəticəsində ölkəmizdə ailə, qadın və uşaq problemlərinə diqqət daha da artırılmış, qadın və uşaqların hüquqlarının müdafiəsi sahəsində zəruri qanunvericilik bazası və institusional mexanizmlər formalaşdırılmışdır. Qadınların sosial- iqtisadi vəziyyətinin və ictimai fəallığının yüksəldilməsi, qadın sahibkarlığının inkişafı, ailələrin sosial rifahının yaxşılaşdırılması istiqamətində qəbul edilmiş bir sıra dövlət proqramları, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin fəaliyyəti  çərçivəsində məişət zorakılığına məruz qalmış qadınlar üçün reabilitasiya proqramlarının hazırlanması, ictimaiyyətin diqqətinin uşaqların hüquqlarının müdafiəsinə yönəldilməsi məqsədilə mütəmadi olaraq Azərbaycan Uşaqlarının Forumlarının, ictimai maarifləndirmə kampaniyalarının, o cümlədən xarici dövlət və beynəlxalq təşkilatlarla birgə layihələrin həyata keçirilməsi bu sahəyə göstərilən xüsusi diqqət və qayğının bariz nümunəsidir. Şübhəsiz ki, ailələrin rifahının, qadınların hüquq və imkan bərabərliyinin, uşaqların ahəngdar inkişafının təmin edilməsi istiqamətində görülən işlərdə Komitənin rəhbəri kimi Sizin də əməyiniz vardır.

**Hörmətli Hicran xanım!**

Sizi bir daha Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılmasının 10 illiyi münasibətilə təbrik edir, ölkəmizdə ailə, uşaq və qadın problemlərinin səmərəli həlli istiqamətindıə gördüyünüz bütün işlərdə Sizə yeni-yeni uğurlar arzulayıram.

**Hörmətlə,**

**Azərbaycan Respublikasının**

**Vergilər naziri Fazil Məmmədov**

## Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi

**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran xanım Hüseynovaya**

**Hörmətli Hicran xanım!**

Sizi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılmasının 10 illk yubileyi münasibətilə ürəkdən təbrik edir, ailə , qadın və uşaq siyasəti sahəsində həyata keçirdiyiniz işlərdə yeni nailiyyətlər arzulayıram.

Danılmaz həqiqətdir ki, Azərbaycan zəngin ənənələri olan , ailə dəyərlərini daim yüksək tutan, qadına xüsusi status verən bir ölkədir. Ölkəmizdə qadın siyasətinin təməl prinsiplərinin müəyyən olunması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Respublikamızda qadınların kişilərlə hüquq bərabərliyi, xüsusən də onların dövlət idarəetməsində iştirakının təmin edilməsi , milli-mənəvi dəyərlərin gənc nəslə ötürülməsi və geniş təbliğ edilməsi , uşaq hüquqlarının müdafiəsi, onların sağlam mühitdə böyüməsi və təhsil alması məqsədilə zəruri tədbirlər görülmüşdür. Ümumimilli lider Heydər Əliyevin ölkədə dövlət qadın siyasətinin formalaşmasında və həyata keçirilməsində mütərəqqi siyasəti bu gün möhtərəm Prezidentimiz İlham Əliyevcənabları tərəfindən uğurla davam etdirilir. Dövlət tərəfindən yaradılmış imkanlar sayəsində Azərbaycan qadını ictimai-siyasi hadisələrin fəal iştirakçısı olaraq respublikamızın sosial-iqtisadi , elmi-mədəni , intellektual potensialının artırılmasına əvəzsiz töhfələr verməkdədir.

Qadınlar harada işləmələrindən asılı olmayaraq yüksək nizam-intizamları, peşəkarlıqları ilə daim fərqlənirlər. Bu gün Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri , Milli Məclisin deputatı Mehriban xanım Əliyeva ölkəmizdə və onun hüdudlarından kənarda Azərbaycan xanımlarını ən yüksək səviyyədə təmsil edir və Azərbaycan qadınının nələrə qadir ola biləcəyini gördüyü işlərlə sübut edir.

Sevindirici haldır ki, rəhbərlik etdiyiniz Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi səmərəli fəaliyyəti ilə Azərbaycan ailəsinin, qadınlarının inkişafı və rifahına , cəmiyyətdə fəal iştirakının təmin edilməsinə, uşaqlara dövlət qayğısının daha da yüksəldilməsinə ciddi töhfələr verir, qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsində uğurlara imza atır. Uğurların qazanılmasında komitə sədri kimi Sizin əməyiniz və səyləriniz Azərbaycan cəmiyyəti tərəfindən yüksək qiymətləndirilir.

Sizi bir daha əlamətdar hadisə münasibətilə ürəkdən təbrik edir, gələcək fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**Hörmətlə,**

**Azərbaycan Respublikasının**

**Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov**

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, professor Hicran Hüseynovaya**

**Hörmətli Hicran xanım!**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaranmasının 10 illiyi münasibətilə Sizi və kollektivinizi ürəkdən təbrik edirik!

**Hörmətli Hicran xanım!**

Azərbaycanın ümummilli lider Heydər Əliyevin dövlətçilik siyasətini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin 6 fevral 2006-cı il tarixli Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılmasından on il ötür. Komitə fəaliyyət göstərdiyi dövr ərzində bu sahədə mövcud olan problemlərin həlli istiqamətində məqsədyönlü fəaliyyət göstərmiş, öz səlahiyyətləri daxilində vətəndaş hüquqlarının, azadlıqlarının, xüsusilə uşaq və qadın hüquqlarının həyata keçirilməsinin təmin edilməsi, müvafiq sahə üzrə dövlət proqramları layihələrinin işlənib hazırlanmasında yaxından iştirak etmişdir. Həmçinin, qaçqın və məcburi köçkün qadınların, uşaqların, aztəminatlı ailələrin sosial problemlərinin həlli istiqamətində ciddi addımlar atılmışdır.

Sizin rəhbərliyinizlə Komitə ailə, qadın və uşaq problemlərinin həlli, gender bərabərliyinin təmin edilməsi, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, məişət zorakılığı və insan alverinin qarşısının alınmasında mühüm nailiyyətlər əldə etmişdir.

**Hörmətli Hicran xanım!**

Bir daha Sizi və Komitənin əməkdaşlarını Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaranmasının 10 illiyi münasibətilə Mədəniyyət və Turizm Nazirliyinin kollektivi və şəxsən öz adımdan ürəkdən təbrik edir, çətin və məsuliyyətli işinizdə böyük uğurlar, yeni-yeni nailiyyətlər arzulayıram.

**Hörmətlə,**

**Azərbaycan Respublikasının**

**Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev**

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, professor Hicran Hüseynovaya**

**Hörmətli Hicran xanım!**

Sizi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılmasının 10 illiyi münasibətilə İqtisadiyyat Nazirliyinin kollektivi və öz adımdan təbrik edirəm.

Dahi siyasət korifeyi Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf kursunun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilməsi nəticəsində ölkəmiz böyük uğurlara imza atır. Bu gün Azərbaycan dünya əhəmiyyətli layihələrin fəal iştirakçısı, regionun siyasi, iqtisadi və mədəni mərkəzidir.

Ölkəmizin hərtərəfli inkişafa nail olduğu bir dövrdə insan hüquq və azadlıqlarının təmin edilməsi, xüsusilə ailələrin sosial rifahının yüksəldilməsi, uşaq və qadın hüquqlarının qorunması vacib amillərdəndir. Təsadüfi deyildir ki, son illər bu istiqamətdə genişmiqyaslı işlər görülmüş, qadın və uşaq hüquqlarının müdafiəsində mühüm nailiyyətlər əldə edilmişdir.

Bu uğurların qazanılmasında, cəmiyyətin inkişafında qadın və uşaqların rolunun artırılmasında rəhbərlik etdiyniz Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin səmərəli fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Qabaqcıl təcrübənin tətbiq edildiyi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi qısa müddət ərzində ölkəmizin ictimai-sosial həyatında xüsusi rol oynayan dövlət qurumuna çevrilmişdir.

Rəhbərliyinizlə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini uğurla həyata keçirməklə, Azərbaycan ailəsinin möhkəmləndirilməsi, ailə dəyərlərinin qorunması, qadın və uşaq hüquqlarının müdafiəsi, milli-mənəvi dəyərlərin gənc nəslə ötürülməsi və təbliğində mühüm işlər görmüşdür.

Dövlət Komitəsinin səmərəli fəaliyyəti ölkə rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir. Bu günlərdə dövlət başçısının imzaladığı Sərəncamla Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin bir qrup əməkdaşının medallarla təltif olunması Komitənin fəaliyyətinə verilən önəmin göstəricisidir.

Sizi və bütün əməkdaşlarınızı əlamətdar bayramınız münasibətilə bir daha təbrik edir, fəaliyyətinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

**Azərbaycan Respublikasının**

**İqtisadiyyat naziri Şahin Mustafayev**

# Azərbaycan Respublikası Əmək və Əhalisinin Sosial Müdafiəsi Nazirliyi

**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri xanım Hicran Hüseynovaya**

**Hörmətli Hicran xanım!**

Sizi Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılmasının 10 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan qadınının iradəsi, mərdliyi, saflığı və sədaqəti cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşmasındakı müstəsna rolu Azərbaycan xalqının Ümummilli Lideri  Heydər Əliyev tərəfindən yüksək qiymətləndirilmişdir. Onun qadınların cəmiyyətin sosial-siyasi və mədəni həyatındakı roluna verdiyi yüksək qiymət və tövsiyələr, dövlət qadın siyasətinin həyata keçirilməsi ilə bağlı fəaliyyəti möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən qətiyyətlə və uğurla davam etdirilir.

Ötən 10 il ərzində rəhbərlik etdiyiniz Komitə ailə və uşaqların qorunmasında, milli mənəvi dəyərlərimizin təbliğində, bütövlükdə ailə institutunun inkişafında əvəzsiz xidmətlər göstərmişdir. Komitənin uşaq və qadınların sosial müdafiəsi, uşaqların ailələrə verilməsi, onların hüquqlarının qorunması üzrə müasir dövrün çağırışlarına cavab verən fəaliyyəti cəmiyyətimizin inkişafına mühüm töhfələr vermişdir.

Əminliklə qeyd etmək olar ki, ailə, qadın və uşaq problemlərinin həlli bu gün yeni bir inkişaf mərhələsindədir və Komitənin kollektivi ona həvalə olunmuş vacib məsələləri məsuliyyət və işgüzarlıqla, dövlətçiliyə sədaqət hissi ilə yerinə yetirir, müasir dövlətin qurulduğu müstəqil ölkəmizdə ailə, qadın və uşaqların müdafiəsinin gücləndirilməsinə daim yeni dəyərli töhfələr vermək əzmi ilə fəaliyyət göstərir.

Sizi bir daha səmimi qəlbdən təbrik edir, mühüm və şərəfli dövləti fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayram.

**Hörmətlə,**

**Azərbaycan Respublikasının**

**Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov**

# Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri xanım Hicran Hüseynovaya**

**Hörmətli Hicran xanım!**

Sizi və rəhbərlik etdiyiniz kollektivi əlamətdar hadisə-Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaranmasının 10 illiyi münasibətilə ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda formalaşdırdığı ailə siyasətini hazırda möhtərəm Prezidentimiz İlham Əliyev uğurla davam etdirir. Bu uğurlu siyasətin həyata keçirilməsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yarandığı gündən müstəsna rol oynamış, Azərbaycan dövlətinə və xalqına layiqli və qüsursuz xidmət göstərmişdir.

Təsadüfi deyil ki, rəhbərlik etdiyiniz Dövlət Komitəsinin fəaliyyəti yalnız respublikamızla məhdudlaşmamış, müasir ailə institutunun problemləri ilə bağlı müxtəlif beynəlxalq və regional tədbirlər keçirmiş, ölkəmizi yüksək səviyyədə təmsil etmişdir. Buna görə də, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin dövlətin təməl dayağı sayılan ailə institutunun möhkəmlənməsində aktiv iştirakı, millətimizin gələcəyi olan uşaqlarla bağlı problemlərə həssas yanaşması, eləcə də bu istiqamətdə ardıcıl fəaliyyəti cəmiyyətimiz tərəfindən birmənalı olaraq müsbət dəyərləndirilir.

Biz qeyd olunan bütün məsələlərdə, xüsusilə zəngin milli-mənəvi irsimizin, Azərbaycan xalqına xas ailə dəyərlərinin təbliği və təşviqi sahəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşlığını, o cümlədən birgə tədbirlər planı təsdiq edərək icra etməsini yüksək qiymətləndiririk.

**Hörmətli Hicran xanım!**

Bu əlamətdar gün münasibətilə Sizi və yüksək peşəkarlıqla rəhbərlik etdiyiniz Dövlət Komitəsinin bütün kollektivini bir daha təbrik edir, cansağlığı, uzun ömür, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə doğma Azərbaycanımızın inkişafı, xalqımızın rifahı və tərəqqisi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri**
**Mübariz Qurbanlı**

# Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Xidməti

**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran xanım Hüseynovaya**

**Hörmətli Hicran xanım!**

Sizi və rəhbərlik etdiyiniz kollektivin bütün əməkdaşlarını Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılmasının 10 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan müstəqil dövlət quruculuğu siyasətinin prioritet istiqamətlərindən birini sosial sahənin ardıcıl tərəqqisi, respublikamızda ailə, qadın və uşaq problemlərinin səmərəli həlli təşkil edir. Möhtərəm Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə həyata keçirilən, ölkəmizin müasirləşməsini və qüdrətlənməsini təmin edən hərtərəfli islahatlar və qəbul edilən qərarlar da cəmiyyətin bu mühüm təbəqəsinin inkişafına və rifahına yönəlmişdir.

Ölkəmizdə insan haqlarının qorunması, xüsusilə ailə, qadın və uşaq hüquqlarının etibarlı təmini və onların pozulmasının qarşısının alınması istiqamətində Sizin və rəhbərlik etdiyiniz Dövlət Komitəsinin xidmətləri cəmiyyətimiz tərəfindən daim təqdir olunur.

Azərbaycan Respublikası Prezidentinin 1 fevral 2016-cı il tarixli Sərəncamı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin bir qrup əməkdaşının “Tərəqqi” medalı ilə təltif edilməsi bu sahədə çalışanlara yüksək qiymətin, diqqət və qayğının bariz ifadəsidir.

**Hörmətli Hicran xanım!**

Bir daha Sizi və kollektivinizi bu əlamətdar gün münasibətilə təbrik edir, hamınıza möhkəm cansağlığı, dövlət quruculuğunun çox mühüm humanitar sahəsindəki önəmli fəaliyyətinizdə ardıcıl uğurlar diləyirəm!

**Hörmətlə,**

**Mədət Quliyev**

**Azərbaycan Respublikasının**

**Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi**

# Tələbə Qəbulu üzrə Dövlət Komissiyası

**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran xanım Hüseynovaya**

**Hörmətli Hicran xanım!**

Sizi və kollektivinizi 10 illik fəaliyyətiniz münasibətilə təbrik edirəm!

Möhtərəm Prezidentimiz İlham Əliyev cənabları cəmiyyətdə inkişafına , layiqli yer tutmasına daim önəm verir. Dövlətimiz xalqımızın milli dəyəri olan ailə, uşaq və əlbəttə ki qadın problemlərini daima diqqət mərkəzində saxlayır və bu sahədə davamlı proqramlar həyata keçirir. Elə bu məqsədlə düz 10 il öncə cənabPrezidentin 6 fevral 2006-cı il Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsiyaradılmışdır.

Sizin və kollektivinizin ölkə başçısı tərəfindən həvalə olunan bu həssas və eyni zamanda çətin, mürəkkəb işdə fədakarlığınız və məhsuldar fəaliyyətiniz ictimaiyyət tərəfindən daim rəğbətlə qarşılanır.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının hər il respublikanın ali məktəblərinə keçirilən tələbə qəbulunun elmi-statistik təhlilinin tərkib hissəsi kimi hazırladığı qəbul imtahanlarının gender aspektlərinə dair elmi araşdırmalara rəhbərlik etdiyiniz Komitə böyük həssaslıqla yanaşır. Bu istiqamətdə birgə əməkdaşlığımız qızların təhsildən uzaqlaşmasına səbəb olan meyllərin qarşısının alınmasına, informasiya kommunikasiya texnologiyalarının qadınlar üçün maksimum əlçatan olmasına , qadınların ali təhsil almasına mane olan müxtəlif sosial , mədəni-məişət xarakterli maneələrin aradan qaldırılmasına töhfə verməkdədir.

Hörmətli Hicran xanım! Sizi rəhbərlik etdiyiniz Komitənin 10 illik yubileyi münasibətilə bir daha ürəkdən təbrik edir, bu humanist işinizdə daha böyük uğurlar arzu edirəm!

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının**

**kollektivi adından M. Abbaszadə**

## Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası

**Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri xanım Hicran Hüseynovaya Hörmətli**

**Hicran xanım!**

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılmasının 10 illiyi münasibətilə Sizi və rəhbərlik etdiyiniz işgüzar kollektivi ürəkdən təbrik edirəm.

Komitə Azərbaycanda ailə, qadın və uşaq problemləri ilə iş üzrə dövlət siyasətini həyata keçirən və tənzimləyən mərkəzi icra hakimiyyəti orqanı olaraq cəmiyyətin inkişafı və sivil vətəndaş münasibətlərinin formalaşması naminə vacib missiya yerinə yetirir. Müasir Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyev cəmiyyətdə ailənin və qadının rolunu həmişə yüksək qiymətləndirmiş, onilliklər boyu rəhbər fəaliyyətində milli ənənələr, milli-mənəvi dəyərlər üzərində bərqərar olan ailə institutunun möhkəmləndirilməsinəvə inkişafına xüsusi önəm vermişdir. Ümummilli liderin təyin etdiyi bu təməl prinsiplərlə yanaşı, müasir Azərbaycan dövləti və cəmiyyəti ailə, qadın və uşaqlarla bağlı yaranan problemləri beynəlxalq norma və meyarlara uyğunluqla həll etməyə çalışır. İnsanların şüuru, dünyagörüşü, maddi və mənəvi imkanları ilə bağlı olan bu çətin fəaliyyət sahəsində Komitənin uğurları böyükdür.

Gender bərabərliyinin təmin edilməsi və qadınların səlahiyyətlərinin genişləndirilməsi ölkə siyasətinin mühüm prioritetlərini təşkil edir. İnsan alveri, məişət zorakılığı, erkən nikah məsələləri, o cümlədən uşaqlara qarşı zorakılıq halları, qadınların reproduktiv sağlamlığı və ailə planlaşdırılması ilə bağlı məsələlər Komitənin daim müdaxilə etdiyi və hər bir sahə üzrə xüsusi layihələr həyata keçirdiyi fəaliyyətistiqamətlərdir.Qarşısında duran bu və digər vəzifələrin həllinə Komitə əlaqəli dövlət və hökumət qurumları, o cümlədən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası və ölkədə fəaliyyət göstərən 200-dən artıq qadın qeyri-hökumət təşkilatı ilə sıx əməkdaşlıda nail olur.

**Hörmətli Hicran xanım!**

İnanırıq ki, Sizin rəhbərliyinizləkollektiviniz Azərbaycanın hərtərəfli inkişaf templərinə uyğun olaraq cənab Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş yeni vəzifələrin öhdəsindən layiqincə gələcək və ölkəmizin davamlı insan inkişafı sahəsində əldə etdiyi nailiyyətlərə, eləcə də vətəndaş cəmiyyətinin möhkəmləndirilməsinə yeni töhfələr verməkdə davam edəcəkdir. Bir daha Sizi və kollektivinizi yubiley münasibətilə təbrik edir, Sizə can sağlığı və işlərinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**
**Azay Quliyev**
**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, Milli Məclisin deputatı**

# Bakı Dövlət Universiteti

**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, professor Hicran HÜSEYNOVAYA**

**Hörmətli Hicran xanım!**

Sizi və rəhbərlik etdiyiniz kollektivi Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 10 illik yubileyi münasibətilə Bakı Dövlət Universitetinin çoxminlik professor-müəllim və tələbə heyəti adından ürəkdən təbrik edirəm.

**Hörmətli Hicran xanım!**

Komitə 10 illik fəaliyyəti ərzində böyük işlər görmüş, ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətinin həyata keçirilməsində və tənzimlənməsində mərkəzi icra hakimiyyəti orqanı kimi geniş fəaliyyət göstərmişdir. Ailə və uşaq problemlərinin qadın problemləri ilə əlaqəli surətdə kompleks həllini təmin etmək məqsədilə yaradılmış Komitə qısa müddətdə xalq arasında böyük nüfuz qazanmış, milli-mənəvi dəyərlərimizin qorunub inkişaf etdirilməsində, qadınların və uşaqların hüquqlarının qorunmasında əvəzsiz xidmətlər göstərmişdir. Ulu öndər Heydər Əliyevin dediyi “Ailə xüsusi, mürəkkəb insan münasibətləri aləmidir. Burada böyük nəzakət, həssaslıq, şəxsiyyətin ləyaqətinə, ailənin mənafeyinə hörmət və ehtiram lazımdır. “-fikirlərini əsas götürən Komitəölkəmizdə xüsusi dəyəri və yeri olan ailənin, qadının və uşaqların cəmiyyətdəki roluna hər zaman həsaslıqla yanaşmışdır. Bütün tarix boyunca övladlarını vətənpərvərlik, xeyirxahlıq, mərdlik ruhunda tərbiyə edərək, xalqımıza xas olan bu gözəl xüsusiyyətləri qoruyub saxlayan Azərbaycan qadınının mədəniyyətimizin, ana dilimizin, dinimizin, adət-ənənələrimizin, milli dəyərlərimizin, ailə ocağının qorunub saxlanmasında misilsiz xidmətləri danılmazdır. Bu gün ölkəmizin müstəqil dövlət kimi inkişaf edərək dünya dövlətləri sırasında öz layiqli yerini tutması və tanınmasında mühüm yer tutan qadınlarımızın lideri, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın ölkəmizin daha da inkişaf etməsi üçün genişmiqyaslı fəaliyyəti, ailə ənənələrinə, milli-mənəvi dəyərlərə və azərbaycanlılıq ideologiyasına dərin köklərlə bağlılığı Komitənin daha yaxşı çalışmasına yeni stimul verir.

**Hörmətli Hicran xanım!**

Siz özünüz bu nüfuzlu təşkilata böyük məharətlə rəhbərlik edərək Azərbaycanda məşhur olan bir ailənin tanınmış nümayəndəsi kimi, məşhur dövlət xadimi Kamran Hüseynovun ailəsində dünyaya göz açmış bir şəxsiyyət kimi və Bakı Dövlət Universitetinin yetirməsi kimi bütün etimadları şərəflə doğrultmuş, istər ailənin, istərsə də doğma universitetin yüksək adını hər zaman uca tutmağı bacarmış, bu adlara şərəf və ləyaqət gətirmişsiniz.Azərbaycanda ailə, qadın və uşaq problemləri ilə bağlı dövlət siyasətinin həyata keçirilməsi sahəsində görülən işlərdə, reallaşan layihələrdə şəxsən Sizin və rəhbərlik etdiyiniz kollektivin böyük əməyi və məhsuldar fəaliyyəti bizi qəlbən sevindirir.

**Hörmətli Hicran xanım!**

Ona görə də Sizi və Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin bütün əməkdaşlarını 10 illikyubiley münasibətilə bir daha təbrik edir, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin və dövlətçiliyinin daha da inkişafı istiqamətində məsuliyyətli və şərəfli işinizdə uğurlar, can sağlığı, ailə xoşbəxtliyi arzulayıram.

**Hörmətlə,**

**Bakı Dövlət Universitetinin rektoru**

**akademik Abel Məhərrəmov**

## Azərbaycan Dövlət İqtisad Universiteti

**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran xanım Hüseynovaya**

**Hörmətli Hicran xanım!**

Bu gün 10 illiyik yubileyini qeyd edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Azərbaycanda ailə siyasətinin həyata keçirilməsində, milli-mənəvi dəyərlərin gələcək nəsillərə ötürülməsində, cəmiyyətdə Azərbaycan qadınının rolunun yüksəldilməsi istiqamətində mühüm addımlar atır. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan bu siyasət, Prezident İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilərək milli strategiya kimi formalaşıb. Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, xoşməramlı səfir Mehriban

Əliyevanın uşaq məsələlərinə diqqət və qayğısıbu sahənin respublikamızın dövlət siyasətində prioritet istiqamətlərdən biriolduğunun bariz nümunəsidir. Vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, xüsusilə ailə, qadın və uşaq hüquqlarının müdafiəsi ölkənin iqtisadi inkişafı və əhalinin sosial rifahının yaxşılaşdırılmasının reallaşdırılmasında mühüm rol oynayır.

Bu mühüm missiyanı həyata keçirən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin bütün kollektivini əlamətdar yubiley münasibətilə təbrik edirəm, şərəfli və çətin fəaliyyətlərində yeni - yeni uğurlar arzulayıram.

**Hörmətlə,**

**Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor**

**Ədalət Muradov**

# Azərbaycan Texniki Universiteti

**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran xanım Hüseynovaya**

**Hörmətli Hicran xanım!**

Respublikamızda ailə, qadın və uşaq hüquqlarının qorunması, onların problemlərinin həlli məsələlərində aparıcı rola malik olan Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaranmasının 10 illik yubileyi münasibətilə Sizi və rəhbərlik etdiyiniz Komitənin çoxsaylı üzvlərini Azərbaycan Texniki Universitetinin kollektivi və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edir, möhkəm can sağlığı, uzun ömür və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra bir çox sahələrdə olduğu kimi, cəmiyyətin təməli olan ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının qorunması, gender bərabərliyinin təmin olunması və s. bu kimi istiqamətlərdə böyük işlər görüldü. Bu yeniliklərin həyata keçirilməsinin əsas təşəbbüskarı ümummilli Lider Heydər Əliyev olmuşdur. 1995-ci ildə Azərbaycan Respublikası BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyasına qoşulmuşdur. Ümummilli Liderin 14 yanvar 1998-ci il tarixli Fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Onun 6 mart 2000-ci ildə imzaladığı "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərmanında qadınların dövlət və ictimai idarəetmədə iştirakının əsas istiqamətləri öz

əksini tapmışdır. Komitə fəaliyyət göstərdiyi dövr ərzində bu sahədə mövcud olan problemlərin həlli istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir. Lakin ailə və uşaq problemlərinin qadın problemləri ilə əlaqəli surətdə kompleks həlli vacibliyi vahid dövlət idarəetmə orqanının təsis olunması zərurəti yaratmışdır. Bununla əlaqədar Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 6 fevral 2006-cı il tarixli Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Bu gün Komitə ölkə başçısının rəhbərliyi altında ailə, qadın və uşaq problemləri üzrə dövlət siyasətini formalaşdırır, müvafiq sahədə dövlət proqramlarını, iri layihələri həyata keçirir. Şəhid ailələrinə, qocalara və əlillərə, xəstə uşaqlara böyük diqqət və qayğı göstərir.

Hüquqi müstəvidə də xeyli iş görülmüşdür. Ölkəmizdə Milli Məclis tərəfindən qəbul olunmuş "Gender (kişi və qadınların) bərabərliyi haqqında" Qanunun məqsədi kişi və qadınlar üçün ictimai həyatın bütün sahələrində bərabər hüquqların təmin edilməsi və cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasıdır. Ölkəmizdə bütün icra strukturlarında qadınlar məsul vəzifələrdə təmsil olunurlar. 2005-ci ildə "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanunun qəbul edilməsi insan alverinə qarşı mübarizə sahəsində çox əhəmiyyətli addımlardan biri oldu. 15 Sentyabr 2006-cı ildə Nazirlər Kabinetinin 211 № li qərarı ilə "Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqramı" təsdiq edildi.

Dövlət Komitəsi ölkəmizdə olduğu kimi Beynəlxalq Təşkilatlarla da böyük iş aparır. Beynəlxalq İnkişaf Agentliyi (USAİD), BMT-nin Uşaq Fondu (UNİSEF) və digər təşkilatlarla birgə iri layihələr həyata keçirir.

Son illərdə Komitənin bir çox nailiyyətləri Sizin adınızla bağlıdır. Dövlət Proqramlarının icra edilməsi, sosial məsələlərinin uğurla həll edilməsi, Beynəlxalq əlaqələrin genişləndirilməsi və s. buna əyani sübutdur. Heç təsadüfi deyildir ki, Fransa Prezidenti tərəfindən “Fransanın Milli Fəxri Legion Ordeninin zabit rütbəsi (ikinci dərəcəli)” ilə təltif olunmusunuz.

**Hörmətli Hicran xanım!**

Rəhbərlik etdiyiniz Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 10 illik yubileyi münasibətilə Sizi və bütün kollektivinizi bir daha ürəkdən təbrik edir, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycanımızın inkişafı yolunda apardığınız məsuliyyətli işlərdə Sizə yeni-yeni nailiyyətlər diləyirəm.

**Hörmətlə,**

**Azərbaycan Texniki Universitetinin**

**rektoru, əməkdar elm xadimi, professor Havar Məmmədov**

# AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN 10 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLDİ



Fevralın 5-də Hökumət Evinin konfrans zalında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 10 illik fəaliyyətinə həsr olunmuş "Azərbaycanda Ailə, Qadın və Uşaq Siyasətinin İnkişafı 2006-2016-cı illər" mövzusunda tədbir keçirilib.



Tədbirdən əvvəl Komitə rəhbərliyi və əməkdaşları Fəxri Xiyabanı və Şəhidlər Xiyabanını ziyarət edərək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin kollektivi Şəhidlər xiyabanına gələrək ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş Vətən övladlarının xatirəsini ehtiramla yad edərək "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin fəaliyyətini əks etdirən sərgi ilə tanışlıqdan sonra tədbir baş tutub. Tədbirdə Azərbaycanın ictimai-siyasi həyatında fəal rol oynayan görkəmli qadınlar, millət vəkilləri, dövlət rəsmiləri, xarici təşkilatların, qeyri-hökumət təşkilatlarının rəhbərləri, nümayəndələri və digərləri iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 06 fevral 2006-cı il tarixli Fərmanı ilə yaradılmış Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ailə, qadın və uşaq məsələlərinin həllinə yönəlmişdir. Ötən 10 il ərzində şəhər və rayonlarda gender bərabərliyinin təmin edilməsi, insan alveri, narkomaniya, məişət zorakılığı, erkən

nikah və selektiv abortlarla mübarizə, uşaqların təhsildən yayınması və digər sahələr üzrə digər qurumlarla birgə genişmiqyaslı məlumatlandırıcı, maarifləndirici tədbirlər həyata keçirilmişdir. Eyni zamanda, sosial xarakterli filmlər çəkilmişdir.



Tədbiri giriş sözü ilə açan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri xanım Hicran Hüseynova hər kəsi salamlayaraq ilk növbədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Komitə əməkdaşlarının yüksək mükafatla "Tərəqqi" medalı ilə təltif etməsini diqqətə çatdıraraq kollektiv adından dərin minnətdarlığını bildirib. Ailə, qadın və uşaq siyasətinin dövlətin prioritet istiqamətlərindən olduğunu qeyd edən Komitə sədri ölkə başçısının bu sahələrə olan diqqət və qayğısının yüksək səviyyədə olduğunu bildirib.

Qadın məsələlərinin həllinin dövlət tərəfindən daim diqqət mərkəzində saxlandığını deyən Hicran Hüseynova dövlət qadın siyasətinin Ümummilli Lider Heydər Əliyevin adı ilə sıx bağlı olduğunu vurğulayıb: "Tarix üçün 10 il çox qısadır, amma biz keçmişdə ölkəmizin keçdiyi yola və bu sahədə Azərbaycanda əldə olunan nailiyyətlərə nəzər salaraq görürük ki, nə qədər böyük işlər həyata keçirilmişdir. Belə ki, Komitənin 2006-cı ildə yaranmasına baxmayaraq, bu proses hələ 90-cı illərdən başlamışdır. 1993-cü ildə, ölkə tariximizin həlledici dövründə Heydər Əliyevin xalqın tələbi və arzusu ilə hakimiyyətə ikinci dəfə gəlişi Azərbaycanı vətəndaş müharibəsindən, parçalanıb dünya xəritəsindən silinmək təhlükəsindən xilas etdi. Qısa vaxt ərzində həm hərbi, həm də iqtisadi böhrandan çıxış yolları tapıldı və ölkədə yaranan ictimai-siyasi stabillik dövlət siyasətinin bütün sahələri kimi bu istiqamətlərin də inkişafına güclü stimul verdi. Böyük siyasi iradə tələb edən məsələlərdən biri də bu sahədə fəaliyyət göstərən xüsusi dövlət qurumunun olması idi. 1998-ci ildə Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanda qadınların rolunun artırılması", "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi










haqqında" Sərəncamları qadınların istənilən sahədə fəaliyyət göstərməsi üçün münbit şərait yaratdı".

Qadınların qərar qəbuletmədə və idarəetmədə iştirakçılığının artırılmasında qanunvericilik bazasının təkmilləşdirilməsi, qanunlara və digər hüquqi sənədlərdə xüsusi bölmələrin yaradılmasının həlledici rol oynadığını bildirən Hicran Hüseynova eyni zamanda müxtəlif illərdə keçirilən Qadın Qurultaylarının və digər beynəlxalq miqyaslı konfransların əhəmiyyətini diqqətə çatdırıb.

Ailə siyasətinin formalaşmasında və inkişafında əldə edilən nailiyyətləri tədbir iştirakçılarına çatdıran Komitə sədri bildirib: "Azərbaycanda hər bir ailənin sosial rifahını yüksəltmək, xüsusilə qadın və uşaqların sosial – iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün zəruri tədbirlər həyata keçirilir. Qəbul olunmuş bir sıra dövlət proqramları, o cümlədən, "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf", "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı" Dövlət Proqramları, Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı və digər sərəncamlar hər bir vətəndaşımızın hüquq və azadlıqlarının təmin edilməsi, xüsusilə, qadın və uşaq hüquqlarının müdafiəsinin reallaşdırılması istiqamətində bütün imkanları təmin edir".

Diqqətə çatdırılıb ki, Komitənin nəzdində fəaliyyət göstərən 11 Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin köməkliyi ilə 57 (əlli yeddi) mindən çox vətəndaşa psixoloji, hüquqi, tibbi yardımın alınmasında köməklik edilmişdir. Uşaq və Ailələrə Dəstək Mərkəzi, alternativ qayğı modeli olaraq, regionlarda risk qrupuna aid olan ailə, qadın və uşaqları müxtəlif xidmətlərə yönəldir, əhali arasında müxtəlif mövzularda maarifləndirmə işləri aparılmış, “açıq qapı” məsləhətləşmələri təşkil edilmişdir.

Hicran xanım Hüseynova eyni zamanda Komitənin təşkilatçılığı ilə hər il qeyd olunan “Ailə Bayram”larının Heydər Əliyev Fondu və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə, “Azərbaycan ailəsi” adlı film festivalının uğurla davam etdiyini bildirib. Uşaq hüquqlarının qorunması, onların sağlam ailələrdə böyüməsi, müasir standartlara cavab verən müəssisələrdə təhsil almasını məsələlərinin də diqqət mərkəzində olduğunu bildirən Komitə sədri uşaqların hərtərəfli inkişafı üçün görülən mühüm işlərdən, layihələrdən bəhs edərək, keçirilən Uşaq Forumları haqqında, həmçinin 2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası” haqqında məlumat verib. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası çərçivəsində “Azərbaycan ailəsi Strategiyası” hazırlanır və yekunlaşmaq üzrədir. Uşaq Strategiyası hazırlanıb, təsdiq üçün təqdim olunmuşdur. Uşaq Məcəlləsi ilə bağlı müəyyən işlərin görüldüyü qeyd olunub.

Hicran xanım Hüseynova çıxışın sonunda Komitənin fəaliyyətini hər zaman geniş şəkildə işıqlandıran media nümayəndələrinə öz təşəkkürünü bildirib.
Daha sonra söz Hüquqi-Təminat şöbəsinin müdiri Taliyə İbrahimovaya verilib. Ailə, qadın və uşaq siyasətinin həyata keçirilməsində əldə edilən nailiyyətlərini qeyd edən şöbə müdiri bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsini vurğulayaraq Komitənin təşəbbüsü ilə qəbul edilən qanunlar və onlara edilən əlavə və dəyişikliklər haqqında məlumat verib. Erkən nikah hallarının, qadınlara və uşaqlara qarşı məişət zorakılığı hallarının qarşısının alınmasında gücü qanunvericilik bazasının olduğunu qeyd edən Taliyə İbrahimova gələcəkdə nəzərdə tutulan planları nəzərə çatdırıb.

Sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova ölkə başçısı cənab İlham Əliyevin 1 fevral 2016-cı il tarixli sərəncamı ilə təltif edilən Komitə əməkdaşlarına “Tərəqqi” medallarını təqdim edərək onlara gələcək fəaliyyətlərində daha böyük uğurlar qazanmasını arzulayıb. Eyni zamanda Komitə ilə sıx əməkdaşlıq edən, hər zaman birgə fəaliyyət göstərən dövlət qurumlarına, beynəlxalq təşkilatların və qeyri-hökumət təşkilatlarına təşəkkür edilərək fəxri fərmanlar verilib.

Komitənin 10 ildə gördüyü işləri vurğulayaraq səmərəli fəaliyyətini qeyd edən tədbir iştirakçıları öz təbrik məktublarını Komitə sədrinə təqdim ediblər. Dini Qurumlarla İş üzrə

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin xüsusən də ailə dəyərlərinin, milli-mənəvi dəyələrin təbliğ və təşviqində oynadığı rolu diqqətə çataraq minnətdarlığını bildirib. Qadının güldüyü, çətinliyi olmayan cəmiyyəti ideal cəmiyyət adlandıran Mübariz Qurbanlı bildirib ki, qadınlarımız ailə dəyərlərini göz bəbəkləri kimi qoruyurlar. O, indiki vəziyyətdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ifadəsində "problem" sözünün "mühafizə" sözü ilə əvəz olunmasını təklif edərək bildirib ki, siz eyni zamanda mənəvi himayədarlıqla məşğulsunuz.





Daha sonra Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanova, AMEA Fəlsəfə və Hüquq İnstitutunun "Politologiya və Siyasi Sosiologiya" şöbəsinin müdiri Rəna Mirzəzadə, BMT İnkişaf Proqramının nümayəndəsi, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Malena Mard, Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Azərbaycan Respublikasının Nazirlər Kabineti Aparatının Humanitar məsələlər şöbəsinin müdiri İsmayıl Sadıqov və digər qonaqlar səmimi təbriklərini çatdıraraq, Komitənin fəaliyyətində daha böyük uğurlar arzulayıblar.

Təbirin sonunda ailə, qadın və uşaq siyasətini və Komitənin 10 illik fəaliyyətini əks etdirən video-çarx nümayiş etdirilib və Komitənin bir qrup əməkdaşları çoxillik və səmərəli fəaliyyətlərinə görə fəxri fərmanla təltif ediliblər.